**DİQQƏT!**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**


*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 170 (6134) **29 sentyabr** 2020-ci il. **Qiymәti 40 qәpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

Bax 2

## Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub



*Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı...*

Bax 4

## Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın təxribatları ilə bağlı "Al Jazeera" telekanalına müsahibə verib




*Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın son təxribatları ilə bağlı "Al Jazeera" telekanalına müsahibə verib.*

Bax 4

## Ermənistan ordusunun dinc əhaliyə qarşı vandallığı!

Bax 9

*Ön xətdə Azərbaycan Ordusunun əks-hücumu qarşısında tab gətirməyən düşmən cəbhəboyu ərazilərdəki yaşayış məntəqələrini, mülki insanların evlərini artilleriya atəşinə tutmaqda davam edir. Cəbhə bölgəsində yerləşən digər rayonlarda olduğu kimi, Tərtərdə də yaşayış məntəqələrinin atəşə...*



## Ukraynalı deputat: Ermənilər, Qarabağ sizin torpağınız deyil, öz xalqınıza yalan məlumat verməyi dayandırın



Ermənilər, Qarabağ sizin torpağınız deyil. Öz xalqınıza yalan məlumat verməyi, alçaq uydurmanı və Azərbaycan torpaqlarına hücumu dayandırın. Bu sözləri AZƏRTAC-a müsahibəsində Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko deyib. Deputat qeyd edib ki, Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribat həyata keçirərək, Azərbaycan ordusunun cəbhə xətti boyunca mövqelərini intensiv atəşə tutublar. Dağlıq...

Bax 4

## Müdafiə Nazirliyi: Düşmənin daha bir neçə hərbi texnikası məhv edilib

Bax 6

Azərbaycan Ordusu bölmələrinin dəqiq zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə məxsus daha bir neçə hərbi texnika məhv edilib. Bu barədə...



## "Azərbaycan Ordusunun bugünkü döyüş əzmi xalqa, Vətənə sevginin təzahürüdür"



Bax 10

## Hulusi Akar: "Biz doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq"



Bax 4

## Bəhruz Quliyev: "Bizim mübarizəmiz ədalətlidir, mütləq qələbəyə doğru istiqamətlənib"



Bax 6

# İlham Əliyev: “Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

***Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.***



Prezident İlham Əliyevin xalqa müraciəti

-Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, “Qarabağ Ermənistandır”, onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə heç hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının “andiçmə” mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası” parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən “könüllü” hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıbdır. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayılmalıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə “Qarabağ Ermənistandır”, bu, yalandır. Mən deyəndə ki, “Qarabağ Azərbaycandır”, bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# İlham Əliyev: “Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!”

*Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib*

***Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib.***



Prezident İlham Əliyevin çıxışı

- Bildiyiniz kimi, bu gün səhər tezdən Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribat nəticəsində itkilərimiz var, həm mülki əhali, həm də hərbçilər arasında. Bu, bir daha onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Səhər tezdən məlumatı alan kimi, mən Müdafiə naziri, digər aidiyyəti qurumların rəhbərləri ilə əlaqə saxladım, müvafiq göstərişlər verdim və bu göstərişlər əsasında hazırda Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlamışdır.

Bildirməliyəm ki, Ermənistanın hərbi təxribatı planlaşdırılmış təxribatdır. Onlar bu təxribata uzun müddətdir ki, hazırlaşırdılar. Bizdə olan operativ məlumat onu göstərirdi ki, Ermənistan bizə qarşı yeni müharibəyə başlamaq fikrindədir. Mən bu məsələ ilə bağlı artıq son bir həftə ərzində bir neçə dəfə həm televiziya kanallarında müsahibəmdə, eyni zamanda, BMT kürsüsündən çıxış edərkən öz fikirlərimi bildirmişdim və demişdim ki, təcavüzkar dövlət dayandırılmalıdır. Onlar yeni müharibəyə hazırlaşırlar.

Bu gün mən Azərbaycan xalqına müraciət etdim. Müraciətdə bu təxribatın səbəbləri və son müddət ərzində Ermənistanın çirkin addımları haqqında geniş məlumat verdim, fikirlərimi bölüşdüm, onları təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bir daha bildirirəm ki, bu gün səhər tezdən bizə qarşı edilən hərbi hücum planlaşdırılmış hərbi təxribat idi. Çünki bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan bizim mövqelərimiz atəşə tutuldu və eyni zamanda, yaşayış məntəqələrimiz, kəndlərimiz atəşə tutuldu. Qeyd etdiyim kimi, mülki əhali arasında itkilərimiz var. Bu, bir daha Ermənistanın, Ermənistan faşizminin eybəcər sifətini göstərir. Çünki dinc əhaliyə qarşı belə qəddarlıq ancaq faşist dövlətlərə aid ola bilər və birinci dəfə deyil, Tovuz hadisələrində, ondan sonra digər hadisələrdə, Xocalı soyqırımı erməni vəhşiləri tərəfindən əliyalın dinc əhaliyə qarşı törədilmişdir və bu dəfə də Ermənistanın əsas hədəfi bizim yaşayış məntəqələrimizdir. Onlar bu atəşi açmaqla istəyirlər ki, Azərbaycan ictimaiyyəti, Azərbaycan vətəndaşları arasında, cəbhəboyu yerləşən kəndlərdə, şəhərlərdə yaşayan insanlar arasında təşviş yaransın. Amma tam qətiyyətlə deyə bilərəm ki, - bu gün səhər mən bütün bölgələrdən, cəbhəyanı bölgələrdən məlumat almışam, - Azərbaycan vətəndaşları cəsarət göstərirlər, hər kəs öz yerindədir, ordumuza, dövlətimizə hər an dəstək verməyə hazırdırlar və bunu edirlər.

Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Deyə bilərəm ki, əməliyyat uğurla keçirilir. Prezident Administrasiyasına, eyni zamanda, Müdafiə Nazirliyinə göstəriş verildi ki, əhali müntəzəm olaraq hadisələrin gedişatı ilə bağlı məlumatlandırılsın. Onu deyə bilərəm ki, uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulmuşdur. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib. Bu münasibətlə bütün Azərbaycan xalqını təbrik edirəm!

Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Ermənilər tərəfindən, Ermənistan rəhbərliyi tərəfindən öz dədə-baba torpaqlarından zorla didərgin salınmış insanlar öz doğma ocaqlarına qayıtmaq istəyirlər. Baxmayaraq ki, artıq onların ocaqları vəhşilər tərəfindən dağıdılıb. Baxın Ağdam şəhərinin qalıqlarına. Baxın Füzuli şəhərinin qalıqlarına. Baxın işğal edilmiş ərazilərdə bizim məscidlərimizin, qəbiristanlıqlarımızın dağılmış vəziyyətinə. Bütün bunları erməni cəlladları törədib və biz tam haqlıyıq. Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq.

> “Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm.”

Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir.

Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun.

Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik. Mən dəfələrlə demişəm, biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan torpaqlarında ikinci qondarma erməni dövləti yaradılsın. Heç vaxt imkan verə bilmərik və bugünkü hadisələr onu bir daha göstərir.

Dağlıq Qarabağ bizim əzəli tarixi torpağımızdır. Mən Dağlıq Qarabağın tarixi ilə, keçmişi ilə bağlı beynəlxalq tədbirlərdə müxtəlif kürsülərdən dəfələrlə öz sözlərimi demişəm. Tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdırmışam. Bizim məqsədyönlü və yorulmaz səylərimiz nəticəsində bu gün Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünyada tam geniş təsəvvür var. Ancaq münaqişənin ilk illərində bu, belə deyildi. Münaqişənin ilk illərində dünya ermənilriyi Azərbaycanı işğalçı kimi, təcavüzkar kimi təqdim edirdi. Əfsuslar ki, o vaxt Azərbaycan rəhbərliyində olmuş şəxslər bu təbliğata qarşı öz sözünü deyə bilmədilər. Azərbaycan elə bir ağır vəziyyətdə idi ki, torpaqlarımız əldən gedirdi, amma dünyada elə bilirdilər ki, Azərbaycan təcavüzkardır. Qarabağ torpaqlarının itirilməsinin səbəbkarı Azərbaycan Xalq Cəbhəsi Partiyası, Müsavat Partiyasıdır. Məhz onların dövründə torpaqlarımız işğal altına düşüb. Onların xəyanətkar, yarıtmaz fəaliyyəti nəticəsində biz bu torpaqları itirmişik. Mən həmişə deyirdim ki, biz müvəqqəti itirmişik, biz bu torpaqlara qayıtmalıyıq. Şuşanın satılması sırf o vaxt hakimiyyət uğrunda gedən mübarizənin nəticəsində baş vermişdir. Kəlbəcərin, Laçının işğal altına düşməsi Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin birbaşa məsuliyyətidir. Məhz bu işğaldan sonra demək olar ki, növbəti işğal da qaçılmaz oldu. Çünki Laçının, Kəlbəcərin, Şuşanın işğal altına düşməsi Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi bağlantı yaratmışdır. Belə olan halda əlbəttə ki, o bölgələrə, Dağlıq Qarabağa silah təchizatı, ondan sonra digər maddi resursların təchizatı asanlaşmışdır.

Bu gün biz Azərbaycan Xalq Cəbhəsi Partiyasının və Müsavat Partiyasının yarıtmaz əməllərini, bu ləkəni Azərbaycanın üstündən silirik. Bu gün biz öz torpaqlarımızı bərpa edirik. 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Bu gün - 2020-ci ildə, artıq bir daha qeyd etmək istəyirəm ki, bir neçə yaşayış məntəqəmiz işğalçılardan azad edildi, bir neçə strateji yüksəkliklər Azərbaycanın nəzarətinə keçdi. Güclü Azərbaycan Ordusu güclü siyasi iradəyə əsaslanır.

Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır.

Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik. İndi isə məlumat üçün söz verilir Müdafiə naziri Zakir Həsənova.

Müdafiə naziri Zakir Həsənov:

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan. Məruzə edirəm ki, saat 6-ya bir neçə dəqiqə qalmış erməni silahlı qüvvələri Füzuli, Cəbrayıl, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriyadan atəşə tutmuşdur. Dağıntılar, əhali arasında yaralananlar və itkilər olmuşdur. Hərbi hissələrin ön xətti də atəşə tutulmuşdur. Eyni vaxtda Ağdam, Füzuli, Cəbrayıl istiqamətindən düşmənin silahlı qüvvələrinin cəmləşməsi müşahidə olunmuşdur və onların hücuma hazırlaşdığı müşahidə edilmişdir. Əməliyyat şəraiti nəzərə alınaraq, ilk növbədə, Sizə məruzə olunmuşdur. Əməliyyat şəraitini nəzərə alaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib. Əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılmışdır. Mənə indi əlavə məlumat da verdilər, yeddi kənd işğaldan azad olunmuşdur. Məsləhətdirsə adlarını burada qeyd edim?

Prezident İlham Əliyev: Qeyd et.

Nazir Zakir Həsənov: Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndləri azad edilmişdir. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir. Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Siz qeyd etdiyiniz kimi, ən müasir silahlar tətbiq olunur və biz düşmənin müqavimətini o qədər də güclü görmürük. Düşmən tam şəkildə geri çəkilir.

Məruzə etdi Müdafiə naziri general-polkovnik Həsənov.

Prezident İlham Əliyev: Aydındır. Biz Təhlükəsizlik Şurasının qalan hissəsini qapalı rejimdə keçirəcəyik. Əminəm ki, Azərbaycan vətəndaşları bu qərara anlayışla yanaşacaqlar. Çünki müzakirə olunan məsələlərin bir çoxu hərbi sirr təşkil edir. Ancaq yenə də demək istəyirəm ki, Azərbaycan əhalisi müntəzəm olaraq həm Prezident Administrasiyası, həm Müdafiə Nazirliyi tərəfindən məlumatlandırılır. Azərbaycan vətəndaşlarına operativ məlumat çatdırılacaqdır.

Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!

x x x

Sonda Təhlükəsizlik Şurasının digər üzvləri müzakirədə iştirak etdilər.

# Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub



***Sentyabrın 27-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib. Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

# Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə telefonla zəng edib



Sentyabrın 27-də Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlətimizin başçısı sentyabrın 27-də Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edib ki, Ermənistanın Azərbaycan silahlı qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir. Azərbaycan Prezidenti bildirib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəliblər.

# Prezidentin köməkçisi Hikmət Hacıyev Ermənistanın təxribatları ilə bağlı "Al Jazeera" telekanalına müsahibə verib

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın son təxribatları ilə bağlı "Al Jazeera" telekanalına müsahibə verib.***




Müsahibədə qeyd olunur ki, 30 ilə yaxındır Azərbaycan Ermənistanın hərbi təcavüzünə məruz qalıb. Azərbaycan torpaqlarının işğalı nəticəsində dinc sakinlərimiz Ermənistan silahlı qüvvələrinin hədəfinə çevrilib. İşğal olunmuş ərazilərdə bir milyon azərbaycanlı etnik təmizlənməyə məruz qalıb. Buna görə də Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatlarını həyata keçirməklə, ilk növbədə, Ermənistanın Azərbaycana qarşı təxribatlarını dəf etmək, gözlənilən təcavüzkarlıq hərəkətlərinin qarşısını almaq, eləcə də Ermənistanı sülh danışıqlarına məcbur etmək məqsədini güdür.

"Çünki sülh danışıqları da Ermənistanın məqsədyönlü və destruktiv mövqeyi ucbatından iflasa uğrayır. Hazırda ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə həyata keçirilən hər hansı real danışıqlar mövcud deyil. Buna görə də məqsədimiz, ilk növbədə, təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək və Azərbaycanın 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarını erməni işğalından azad etməkdir", - deyə Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ermənistan tərəfi mülki vətəndaşlarımıza qarşı hücumları davam etdirir. Öz suveren torpaqlarına qayıtmaq hüququna malik olan azərbaycanlı qaçqın və məcburi köçkünlər Ermənistanın həmin əraziləri işğal altında saxlaması səbəbindən öz torpaqlarına geri qayıda bilmirlər.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında Sərəncam imzalayıb.

***

Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin olunması ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Daxili İşlər naziri Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq olunduğu ərazilərin komendantı təyin edilib.

# Hulusi Akar: "Biz doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq"



Ermənistan hücumları dərhal dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməlidir. AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bunu Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında bildirib.

Nazir deyib: "Sülh yolu ilə həllə çağırış edənlər, "dərhal atəşkəs" istəyənlər, dialoqu indi xatırlayanlar, Azərbaycan ərazisinin 20 faizinin, o cümlədən Dağlıq Qarabağ işğal altında olarkən, Xocalıda minlərlə günahsız insan vəhşicəsinə, haqq-hüquq tanımadan uşaq, qadın və yaşlı demədən qətlə yetirilərkən, 30 ildir milyonlarla insanın evindən, yurdundan didərgin düşərkən harada idilər? Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər "bir millət, iki dövlət" prinsipinə əsaslanır. Kədərdə də, sevincdə də daim bərabərik. Bu gün doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq. Ermənistan dərhal hücumları dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməli və Azərbaycanın işğal edilmiş torpaqlarını boşaltmalıdır. Beləliklə, atəşkəs, sülh və sabitlik təmin edilməlidir".

# Ukraynalı deputat: Ermənilər, Qarabağ sizin torpağınız deyil, öz xalqınıza yalan məlumat verməyi dayandırın



Ermənilər, Qarabağ sizin torpağınız deyil. Öz xalqınıza yalan məlumat verməyi, alçaq uydurmanı və Azərbaycan torpaqlarına hücumu dayandırın. Bu sözləri AZƏRTAC-a müsahibəsində Ukrayna Ali Radasının deputatı Lyudmila Marçenko deyib.

Deputat qeyd edib ki, Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribat həyata keçirərək, Azərbaycan ordusunun cəbhə xətti boyunca mövqelərini intensiv atəşə tutublar. Dağlıq Qarabağ bölgəsində döyüş əməliyyatlarına Ermənistan başlayıb. Ermənistan KİV-ləri isə bu feyk və təhrikçi məlumatı fəal şəkildə yayır. "Ukrayna Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir", - deyə L.Marçenko əlavə edib.

# Görkəmli ədəbiyyat tarixçisi Mir Cəlal Paşayev

## Mir Cəlal Paşayevin vəfatından 42 il ötür

***Böyük zəhməti, parlaq istedadı, ürəyində gəzdirdiyi mərhəmət və xeyirxahlıq hissi onu daim yüksəklərə səsləyirdi. Elə buna görə də onun mənalı ömrü tutduğu vəzifəsindən asılı olmayaraq mənsub olduğu millətə xidmət etməklə keçib.***

XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayev həm də yüksək insani keyfiyyətləri ilə nurlu şəxsiyyətlərdən biri kimi xalqımızın yaddaşında özünə əbədiyaşarlıq qazanıb. SİA xəbər verir ki, dünən görkəmli alimin və yazıçının vəfatının 42 ili tamam olub.

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprelin 26-da Cənubi Azərbaycanın Ərdəbil vilayətində yoxsul kəndli ailəsində dünyaya göz açıb. Kiçik yaşlarında atası Gəncəyə köçdüyündən uşaqlığını burada keçirib. 1918-ci ildə - Mir Cəlal 10 yaşında ikən atası vəfat edib, o, böyük qardaşının himayəsində yaşayıb.

Əzablı ömür qisməti dünyaya gəldiyi ilk illərdən onu izləməyə başlasa da, Ulu Tanrının mərhəməti sayəsində Mir Cəlal Paşayev çox çətinliklərə sinə gərərək, öz yolu ilə inadla, inamla irəliləyib. O, 1918-1919-cu illərdə Xeyriyyə Cəmiyyətinin köməyi ilə ibtidai təhsil alıb və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Gəncə Darülmüəllimliyinə daxil olub. Tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri seçilib.

Mir Cəlal Paşayev Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsilini davam etdirməklə yanaşı, müəllimlik etmiş və millətinin övladlarına xalqının ədəbiyyatını, mədəniyyətini, zəngin keçmişini mənimsətmişdir. Bu mənada Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir.

Yazıçı kimi 1928-ci ildə ədəbiyyata gələn Mir Cəlal, elə həmin ildə də ilk tədqiqat əsərini yazıb. Sözün gücünə güvənib, onun böyüklüyünə baş əyən sənətkarın könüllərə yanğı salmış "Bir gəncin manifesti" əsəri, zəmanənin güzgüsü olan hekayələri klassik bədii nümunələr kimi ədəbiyyat tariximizin səhifələrində müəllifinə əbədiyaşarlıq qazandırıb. Onun böyük zəhmətinin bəhrəsi olan "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir.

Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) sevimli müəllimi, nüfuzlu professoru kimi xatirələrdə daim yaşayan Mir Cəlal Paşayev həqiqət, düzlük, səmimiyyət aşiqi, ailəsini, övladlarını sevən, qoruyan şəxsiyyət olub. Onun bu kəlamı indi də dillər əzbəridir: "Həyatımda yaratdığım ən böyük əsər ailəmdir".

XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal, az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Səməd Vurğun, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mehdi Hüseyn kimi tanınmış söz ustadları ilə bir dövrdə yaşayan Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlal Paşayevin adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Əminliklə deyə bilərik ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı yox idi. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunub. Lakin o, bundan sonra, daha doğrusu, 1930-cu ildən etibarən hekayələr yazıb. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət" və digər hekayələrini çap etdirib. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerklər və novellalar kitabları işıq üzü görüb.



Mir Cəlalın bütövlükdə yaradıcılıq dünyası ilə tanışlıqdan sonra belə qənaətə gəlmək olur ki, onu düşündürən həyati məsələləri, milli folklorun, xalq təfəkkürünün işığını, milli mənəvi dəyərlərin klassik ənənələrə uyğun inkişafını və bu istiqamətdə yaranan problemləri, xalq həyatının real görüntüsünü nəsr dilində aydın, qabarıq şəkildə vermək mümkündür. Necə ki, Sabiri oxuyanda şeirin, Mirzə Cəlili oxuyanda satira və yumorun gücünü duyursan, Mir Cəlal hekayələrini oxuyanda da eyni hissləri keçirirsən.

Mir Cəlalın ilk irihəcmli əsəri - "Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunub. Hələ yarım əsr bundan əvvəl akademik Məmməd Arif yazırdı: "Mir Cəlal "Dirilən adam"la diqqətli bir realist yazıçı olduğunu göstərmişdir".

İlk dəfə 1937-1939-cu illərdə hissə-hissə "Revolyusiya və kultura" jurnalında nəşr olunan "Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaradıb, ədəbi zirvəyə aparan yoluna cığır açıb və müəllifə böyük oxucu auditoriyası qazandırıb. 1940-cı ildə "Uşaqgəncnəşr"də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də təkrar çap edilib. "Bir gəncin manifesti" bu gün də qəlbləri riqqətə gətirir. Doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunan "Bir gəncin manifesti" Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda da sevilir.

Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", "Yolumuz hayanadır" romanlarında keçmiş, "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər" romanlarında isə müasir həyat lövhələrinin bədii təsviri ustalıqla qələmə alınıb. Yazıçının "İnsanlıq fəlsəfəsi" (1961) kitabında toplanmış hekayələri də böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və digər hekayələrində isə real həyat lövhələri, fəlsəfi düşüncələr əks olunub.

Mir Cəlalın bədii yaradıcılıq nümunələri dəfələrlə nəşr olunub. "Seçilmiş əsərləri" (2 cilddə, 1956-57), "Seçilmiş əsərləri" (4 cilddə, 1967-68), "Seçilmiş əsərləri" (2 cilddə, 1986-87), hekayə və povestlərdən ibarət "Şəfəqdən qalxanlar" (1972), "Dağlar dilə gəldi" (1978), "Ləyaqət", hekayələrdən ibarət "Bostan oğrusu" (1937), "Gözün aydın" (1939), "Vətən" (1944), "Həyat hekayələri" (1945), "Sadə hekayələr" (1955), "Xatirə hekayələri" (1962), "Gülbəsləyən qız" (1965), "Silah qardaşları" (1974) və s. kitabları bu qəbildəndir. Ümumiyyətlə, indiyədək yazıçının 70-dən çox kitabı nəşr olunub.

XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan Mir Cəlal Paşayev çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutub. Filologiya təhsili alan tələbələrin birinci kursda istifadə etdikləri "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi sonralar da mütəxəssislərin masaüstü kitabı olmuşdur. Mir Cəlal Paşayev 1936-cı ildən ömrünün sonunadək dərs dediyi universitetin auditoriyalarında bu fəndən mühazirələr oxuyub.

Mir Cəlal Paşayev 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi, 1947-ci ildə isə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcələrini alıb. Füzuli poeziyasının qüdrətinə heyran olan, ümumiyyətlə, klassik ədəbiyyata qəlbən bağlı Mir Cəlal Paşayev 1958-ci ildə bu mövzuya yenidən müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirib. Professor Qara Namazov deyir ki, Mir Cəlalın "Füzuli sənətkarlığı" monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır. Əsər 1994-cü ildə təkrar nəşr olunub.

"Azərbaycanda ədəbi məktəblər (1905-1917)" əsərində isə Mir Cəlal Paşayev XX əsrin əvvəllərində inqilabi-demokratik meyillərlə əlaqədar baş verən ictimai-siyasi hadisələr kontekstində Azərbaycanda realizm, romantizm ədəbi məktəbləri, maarifçi-didaktik yazıçılar və xırda məişət dramları haqqında müfəssəl tədqiqatlar aparmış, əhatəli elmi nəticələr əldə edib.

Mir Cəlal Paşayevin tanınmış tədqiqatçı Firudin Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" əsəri uzun illərdir ki, ali məktəblərin dərs vəsaitidir. Bu dərslikdə XX əsrin böyük ədəbi şəxsiyyətləri, onların yaradıcılığı, ədəbi mühitə gətirdikləri yeniliklər haqqında əhatəli elmi fikirlər əks olunub. Əməkdar Elm Xadimi Mir Cəlal Paşayev XX əsr ədəbiyyat, ədəbiyyatşünaslıq tarixində elə bir iz qoyub ki, bu, çağdaş təfəkkürümüzün də əsas sütunu olaraq qalacaqdır.

1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşmuş, böyük şəxsiyyət kimi tarixləşmiş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayevin xatirəsi daim qəlblərdə yaşayacaq, ədəbiyyatımızın, ədəbiyyatşünaslığımızın əbədi mövzusu olaraq qalacaq.

Kamil insan, alim, yazıçı dünyanı təkcə izah etmir, eyni zamanda, onu dəyişdirir, insanların şüuruna, baxışlarına təsir edə bilir. Bu mənada Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı nəinki müasirlərinə, özündən sonra gələn nəsillərə də örnəkdir. Təsadüfi deyil ki, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da görkəmli ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri çap olunaraq maraqla oxunur.

"UNESCO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən, yazıçı Mir Cəlal Paşayevin yubiley mərasimi təntənə ilə qeyd edilib. Parisdə, UNESCO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilib. Bu, həm də Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən dəyərin təzahürüdür.

İllər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi tədqiq edilmir, onun həm də xeyirxahlığı, böyük və əlçatmaz müəllimliyi, bəşəriliyi heyranlıqla qarşılanır və sevilə-sevilə qəlblərdə özünə ucalıq abidəsi qurur. Ədibin bu zirvədəki yeri daim qalacaq və onun mərhəmət sevgisi dünya durduqca yaşayacaq.

# Milli Məclis Sədrinin müavini Adil Əliyev: Zəfər bizimdir!

***Ermənistan tərəfinin sentyabrın 27-dən başlayaraq həyata keçirdiyi növbəti təxribatın qarşısı Milli Ordumuz tərəfindən qətiyyətlə alındı və düşmənə əks hücumda ciddi zərbə vuruldu. Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev söyləyib.***



O qeyd edib ki, Ermənistan tərəfinin törətdiyi təxribatlar zamanı əsas hədəfləri mülki vətəndaşlar və onların yaşadıqları evlər olub. Bu, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş bütün prinsiplərinin pozulmasıdır. Düşmənin bu dəfə törətdiyi təxribat yenidən onu deməyə əsas verir ki, Ermənistan tərəfi bu təxribata uzun müddət idi hazırlaşırdı.

Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının 75-ci sessiyasında çıxışı zamanı bir daha vurğuladı ki, Ermənistan işğalçı dövlətdir, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri bu vaxta qədər icra etmir və hazırda silah-sursat tədarükü həyata keçirir.

Son xəbərdarlıqdan sonra düşmən növbəti dəfə təxribata cəhd edərkən artıq döyüş əmri verildi. Ermənistan tərəfinin təxribat törətməkdə əsas hədəfi cəmiyyətdə çaşqınlıq yaratmaqdır. Onlar düşünmürlər ki, Azərbaycan xalqı Prezidentinə, Ordusuna güvənir və öz torpaqları uğrunda döyüşə hər an hazırdır.

Bu gün Azərbaycan Ordusunda çox yüksək əhval-ruhiyyə var. Şanlı Ordumuz zəfərdən-zəfərə doğru inamla irəliləyir. Əhali arasında da ruh yüksəkliyi müşahidə edilir. Hazırda hər kəs Ordumuzun yanındadır, kimliyindən, tutduğu vəzifədən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşının ürəyi ordu ilə döyünür, hamı bir nəfər kimi Azərbaycan əsgərinə dəstək olmağı özünə müqəddəs amal bilir.

Bu gün Azərbaycan Ordusu bütün növ müasir silah və sursatla təmin edilib, tam komplektləşdirilib. Cəbhədəki əsgərlərimizlə yanaşı, sayca ermənilərdən dəfələrlə çox olan Azərbaycan xalqı hər an döyüşə getməyə hazırdır. Hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölmələrinə vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər edilir.

Ali Baş Komandan dediyi kimi, bizim başqasının torpağında gözümüz yoxdur. Hazırda aparılan döyüş isə Azərbaycanın haqq döyüşüdür, ədalətsizliyə, təcavüzə qarşı apardığı döyüşdür.

Şanlı Ordumuz bizi hər an öz qalibiyyət xəbərləri ilə sevindirməkdə davam edir. Düşmənin öz itkiləri ilə bağlı real rəqəmləri gizlətməsinə baxmayaraq, açıqladıqları rəqəmlər belə onların məğlubiyyətini bir daha göstərir.

Yalnız sentyabrın 27-də həyata keçirilən əməliyyatlar zamanı 7 yaşayış məntəqəsi və 2 yüksəklik düşməndən azad edilib. Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi əməliyyat nəticəsində Murov zirvəsinin, işğal olunmuş ərazilərimizi Ermənistanla birləşdirən hərbi əhəmiyyətli avtomobil yolunun azad edilməsi, vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülməsi qeyd olunan ərazilərdə düşmənin hərəkət etməsinin qarşısını almağa imkan yaradır.

Talış kəndi ətrafındakı yüksəkliklərin işğaldan azad edilməsi ilə əlaqədar paylaşılan məlumatlardan görünür ki, düşmənə çox ağır zərbələr vurulmaqdadır. Ərazilərimizin işğaldan azad olunması uğrunda əməliyyatlar davam edir.

Sədr müavini bildirib: “Əldə olunmuş uğurlar, işğaldan azad edilən ərazilərimiz, Ordumuzun şücaəti və göstərdiyi qəhrəmanlıqlar, xalqımızda Ali Baş Komandana və Ordumuza olan inam bir daha onu deməyə əsas verir ki, zəfər bizimlədir! Tezliklə bütün xalqımız böyük Qələbəni bayram edəcək! Yaşa, Azərbaycan Ordusu! Yaşa Azərbaycan əsgəri!”

## Ermənistan daha 28 hərbçisinin həlak olduğunu elan edib

Ermənistan daha 28 hərbçisinin həlak olduğunu elan edib. SİA-nın məlumatına görə, bu barədə erməni KİV-ləri bildirir. Qeyd edək ki, Azərbaycan Müdafiə Nazirliyi əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qaldığını bildirib. Belə ki, düşmənin 22 tankı və digər zirehli texnikası, 15 ”OSA” zenit-raket kompleksi, 18 pilotsuz uçuş aparatı (PUA), 8 artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə düşmənin 3 silah-sursat anbarı məhv edilib.

# Bəhruz Quliyev: “Bizim mübarizəmiz ədalətlidir, mütləq qələbəyə doğru istiqamətlənib”



***“Məlum olduğu kimi, sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub”. SİA xəbər verir ki, bu barədə “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzu ilə bağlı fikirlərini şərh edərkən deyib.***

Onun sözlərinə görə, Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı həyata keçirməkdədir. Ordumuzun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı Azərbaycan Silahlı Qüvvələrinin gücündən və qüdrətindən xəbər verir.

“Azərbaycan Ordusu zəfər yürüşünü uğurla davam etdirir və düşmənə layiq olduğu ən sərt cavabı verir, həmçinin əks-hücum əməliyyatlarının bütün cəbhəboyu ərazilərdə aparılması, ən müasir hərbi texnikalarımızın, müxtəlif hərbi komplekslərimizin peşəkar istifadəsi və s. reallıqlar da belə nəticəyə gəlməyə zəmin yaradır ki, işğalçılar qısa müddətdə torpaqlarımızdan çıxarılacaqlar”, deyən baş redaktora görə, məhz bu uğurlu əməliyyatların nəticəsidir ki, Silahlı Qüvvələrimiz cəmi bir gün ərzində bir neçə kəndlərimizi, habelə strateji yüksəkliklərimizi düşmən tapdağından azad etdi, hazırda da əks-hücum əməliyyatları davam edir: “Düşünürəm ki, hər bir azərbaycanlı, hər bir Azərbaycansevər hər saatda, hər anda o xoş xəbərləri eşitmək istəyindədir və əminəm ki, eşidəcək də. Əbəs deyil ki, cənab Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətində xüsusilə vurğuladı ki, Azərbaycan Ordusu torpaqların işğaldan tam azad olunmasına qədər döyüşəcək, qələbə ələ olunacaq. Bu gün cəbhədə döyüşən igid əsgərlərimizdə də, zabit heyətində də, sadə vətəndaşlarımızda da - hər kəsdə elə bir nəhəng ruh yüksəkliyi yaranıb ki, onun qarşısında heç bir yağı düşmən dayanmaq iqtidarında deyil. Düşmən silahını, texnikasını, hərbi təchizatlarını atıb qaçır və qaçacağı yer də əlbəttə ki, İrəvandır.

Yeri gəlmişkən, artıq Ermənistanın baş naziri Nikol Paşinyan çıxışlarının birində bəyan edib ki, ermənilər çıxış yolu tapa bilmədiklərini görsələr dərhal Ermənistanın ərazisinə keçsinlər. Bu, düşmənin birdəfəlik məğlubiyyətinin ilk anonsudur”.

Siyasi ekspert hesab edir ki, ölkəmizdə hərbi vəziyyətin elan olunmasından tutmuş, komendant saatının tətbiqinə, habelə sosial şəbəkələrin istifadəsində qoyulan məhdudiyyətlərə qədər verilən hər bir qərar qələbəyə köklənmiş mühüm addımdır: “Çünki müharibə şəraitində düşmən yalnız cəbhədə deyil, həm də sosial şəbəkələrdə, mediada da işini aparır. Əbəs deyil ki, bu gün dünyanın hərbi - siyasi leksikonunda “informasiya müharibəsi” adlandırılan amil də mövcuddur. Məhz bu vasitə ilə düşmən çalışır ki, sosial şəbəkələrdə, sayt və portallarda qarşı tərəfə yalan məlumatlar ötürsün, eləcə də xalq və ordu arasında ruh düşkünlüyü yaratsın. Amma gördüyümüz kimi, düşmən bu cəbhədə də uduzur və uduzması faktdır. Ona görə də fürsətdən istifadə edərək həm də bir media adamı, jurnalist kimi həmkarlarımızdan maksimum şəkildə rəsmi məlumatlarımıza istinad etməyi, informasiyaları bu istiqamətdə işıqlandırmağı, vətəndaşlarımızdan yalan məlumatlara inanmamağı xahiş edirəm. Bizim mübarizəmiz ədalətlidir, mütləq qələbəyə doğru istiqamətlənib. Biz, Azərbaycan xalqı olaraq bu qələbəni haqq edirik və onu birlikdə bayram edəcəyik”.

***Rövşən RƏSULOV***

## Türkiyə parlamentinin sədri: Azərbaycanın yanında olmağa davam edəcəyik



“Bütün dünya, xüsusən də Ermənistanın dövlət terroruna ortaq olanlar bilməlidir ki, Azərbaycan Türkiyə üçün dost bir ölkə, sadəcə yaxın coğrafiya deyil. Eyni zamanda könül coğrafiyasıdır, tale coğrafiyasıdır”.

“Anadolu” agentliyinin verdiyi xəbərə görə, bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop deyib. “Türkiyə hər zaman maddi, mənəvi bütün gücü ilə Azərbaycanın yanındadır və bir an belə tərəddüd etmədən hər zaman yanında olmağa davam edəcəkdir”, - deyə Türkiyə parlamentinin sədri qeyd edib.

## Vaqif Dərgahlı: Ermənistan ordusu ərzaq qıtlığı və dərman ləvazimatları çatışmazlığı ilə üzləşib



Aparılan ikigünlük döyüşə tab gətirməyən Ermənistan ordusunda dərman və tibbi ləvazimatlar, eləcə də ərzaq qıtlığının olması barədə məlumatlar əldə etmişik. Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı qeyd edib ki, dərman və tibbi ləvazimat çatışmazlığı düşmənin döyüşlərdə verdiyi çoxsaylı itkilərlə əlaqədardır. Yaralıların və meyitlərin təxliyəsi üçün nəzərdə tutulmuş hərbi sanitar nəqliyyat vasitələrinin sayının kifayət etməməsi səbəbindən onların daşınması fərdi avtomobillər və yük maşınları vasitəsilə həyata keçirilir.

## Müdafiə Nazirliyi: Düşmənin daha bir neçə hərbi texnikası məhv edilib



Azərbaycan Ordusu bölmələrinin dəqiq zərbələri nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə məxsus daha bir neçə hərbi texnika məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Müdafiə Nazirliyinin mətbuat xidmətinin yaydığı videoda düşmənə məxsus hərbi texnikaların məhv edilmə anları əks olunub.

## Azərbaycana daha bir ölkədən dəstək



“Azərbaycan əsla yalnız deyil, Ermənistanı hücuma təşviq edənlər xəyallarına çata bilməyəcəklər”. SİA-nın məlumatına görə, bunu Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ersin Tatar qeyd edib. Tatar paylaşımında bu ifadələrə yer verib: ”Ermənistanın qardaş Azərbaycana qarşı hücumlarını şiddətlə qınayır, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Bəllidir ki, kimlərsə bölgə ilə bağlı əməllərini gerçəkləşdirmə xəyalı ilə Ermənistanı fiqur kimi istifadə edir. Amma bilinməlidir ki, Azərbaycan əsla yalnız deyil”.




# Qırğızıstanın portalları Azərbaycan Prezidentinin xalqa müraciətini yayıb







Qırğızıstanın "goldenbridgenews.com" və "turktoday.info" portalları AZƏRTAC-a istinadla Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətini və Təhlükəsizlik Şurasının iclasındakı çıxışı ilə bağlı məqalə yayıb.

Yazılarda dövlətimizin başçısının çıxışlarından sitatlar verilib, Ermənistanın ölkəmizə qarşı təxribatlar törətdiyi və Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr endirdiyi qeyd olunub. Bildirilib ki, Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri əks hücuma keçib və əməliyyat uğurla davam edir.

Materiallarda, həmçinin Prezident İlham Əliyevin Tovuz döyüşləri ilə bağlı fikirlərinə də yer verilib: "Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar".

# Ərdoğan: "Türkiyə bütün imkanları və bütün qəlbi ilə dost və qardaş Azərbaycanın yanındadır"



Azərbaycan torpaqlarına hücum edən Ermənistanı bir daha sərt şəkildə qınayıram. Türkiyə bütün imkanları və bütün qəlbi ilə dost və qardaş Azərbaycanın yanında olmağa davam edəcək. Bölgədə sülhün və sabitliyin bərqərar olması üçün Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından dərhal geri çəkilməlidir. Bölgədə Dağlıq Qarabağın işğalı ilə başlayan böhrana son qoyulmalıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən beynəlxalq Şərqi Aralıq dənizi simpoziumunda çıxışı zamanı səsləndirib.

"Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını dərhal tərk etməsi ilə bölgədə sülh və əmin-amanlıq bərqərar olacaqdır", - deyən Türkiyə Prezidenti bundan başqa çıxış yolunun qanunsuzluq, haqqın və hüququn tapdanması olduğunu vurğulayıb.

Türkiyə dövlətinin başçısı deyib ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib. Azərbaycan istər-istəməz öz problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib.

# Xankəndi və Şuşada yaşayan ermənilər belə qaçır!



Azərbaycanın işğal altındakı Xankəndi və Şuşa şəhərlərində məskunlaşan erməni əhali qorxu içindədir. Bu barədə Oxu.Az sosial şəbəkələrin erməni seqmentinə istinadən xəbər verir.

Bildirilir ki, Xankəndi və Şuşada yaşayan ermənilər Azərbaycanın Ordusunun zərbələrindən qorxaraq Ermənistana qaçmağa çalışırlar.

Qeyd edək ki, hazırda Azərbaycan Ordusu əks-hücum əməliyyatları keçirir, Qarabağ cəbhəsində şiddətli döyüşlər gedir.

Dünən də Azərbaycan Ordusu Talış kəndi istiqamətindəki əlverişli yüksəklikləri düşmən qüvvələrindən təmizləyib. Eyni zamanda Ermənistanın bir neçə canlı qüvvəsini, hərbi texnikalarıməhv edilib. Sentyabrın 27-də isə Azərbaycan Ordusu işğal altında olan yeddi kəndi və Murovdağ silsiləsindəki Murov zirvəsini işğaldan azad edib.

# İtaliyalı deputatlar: "Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir"




İtaliya Senatının Xarici əlaqələr daimi komissiyasının üzvü, hakim "5 Ulduz Hərəkatı" partiyasından olan senator Canluka Ferrara mətbuata açıqlamasında Ermənistan tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücumlar vaxtı Azərbaycan mülki əhalisinin yaşadığı məntəqələrin hədəf alınmasının Cenevrə konvensiyalarını pozduğunu bildirib. O deyib ki, münaqişənin həlli BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini əsas götürərək Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış dövlət sərhədlərinin toxunulmazlığı prinsiplərinə tam hörməti özündə ehtiva etməlidir.

AZƏRTAC xəbər verir ki, italyan senator, habelə Ermənistan və Azərbaycan arasındakı münaqişənin kəskinləşməsindən və yeni böhranın Avropanın kandarında beynəlxalq müdaxilə riskini artırmasından narahatlığını ifadə edib. Canluka Ferrara Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində vəziyyətin daha da pisləşməməsi üçün uzun müddətdir ki, durğun vəziyyətdə olan danışıqların bərpa edilməsinə dəstəyini ifadə edib, Avropa İttifaqının diplomatik kanallardan istifadə edərək toqquşmaların dayandırılmasına zəmanət verə biləcəyinə ümid etdiyini deyib.

İtalyan senatorun açıqlaması İtaliyanın İl Tempo, Agenzia Nova, Politicamente Corretto, Adnkronos, Fortune İtalia, Maxim İtalia, Notize Yahoo, Libero Quotidiano, TW News kimi kütləvi informasiya vasitələri tərəfindən dərc edilib.

İtaliyanın Agenzia Nova xəbər agentliyinə açıqlamasında parlamentdə İtaliya-Azərbaycan Dostluq Assosiasiyasının sədri, "Leqa" partiyasından olan deputat Rossana Boldi Azərbaycan və Ermənistan arasında silahlı toqquşmaların artmasından narahatlığını ifadə edib. İtalyan deputat ümidvar olduğunu bildirib ki, İtaliya Minsk qrupunun üzvü kimi dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətə əsaslanaraq, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələrindən irəli gələrək Dağlıq Qarabağ probleminin danışıqlar vasitəsilə həlli üçün öz səylərini gücləndirəcək.

# BERNAMA agentliyi: Dağlıq Qarabağda baş verənlər Ermənistanın hərbi təxribatıdır




Malayziyanın BERNAMA dövlət informasiya agentliyi Ermənistan hərb qüvvələrinin sentyabrın 27-dən etibarən Azərbaycana qarşı başladığı növbəti hücumlarla bağlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, “Azərbaycan Dağlıq Qarabağdakı bir neçə yaşayış məntəqəsinin azad olunduğunu təsdiq edib” sərlövhəli məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş Təhlükəsizlik Şurasının iclasında dövlət başçımızın çıxışına geniş yer verilib.

Qeyd edilib ki, Ermənistan ordusunun hərbi təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçib. Hərbi əməliyyatlar uğurla davam etdirildiyini vurğulayan Prezident İlham Əliyev deyib: “ Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib, bir neçə strateji əhəmiyyətli yüksəklik Azərbaycanın nəzarətinə qaytarılıb”.

Dövlətimizin başçısının sentyabrın 27-də Azərbaycana qarşı başlanmış hücumun əvvəlcədən planlaşdırılmış təxribat olması barədə fikri də məqalədə öz əksini tapıb.

Azərbaycan Prezidentinin çıxışında vurğuladığı “Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır” sözləri sitat kimi məqalədə yer alıb.

Məqalədə malayziyalı oxuculara münaqişənin tarixi barədə də məlumat verilib. Vurğulanıb ki, tarixi torpağımız olan və bu gün beynəlxalq ictimaiyyətin Azərbaycanın tərkib hissəsi kimi tanıdığı Dağlıq Qarabağ regionu, onun ətrafındakı yeddi rayon 1991-ci ildə SSRİ dağıldıqdan sonra işğal edilib.

Azərbaycan Prezidentinin işğal altında olan torpaqlarımızın azad edilməsinin həm milli məsələ, həm də tarixi vəzifə olması barədə fikri də yazıda öz əksini tapıb: “Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun”.

Yazıda, həmçinin qeyd edilib ki, bu, iki dövlət arasında 2016-cı ildən sonra ən ciddi qarşıdurmadır. Cari ilin iyulunda da iki ölkənin sərhədlərində hərbi toqquşma baş verib, nəticədə həm hərbçilər, həm də mülki vətəndaşlar arasında itkilər olub.

Məqalədə Azərbaycan Müdafiə Nazirliyinə istinadla cəbhədəki son vəziyyət və erməni təxribatları barədə məlumatlara da geniş yer verilib.

# Türkiyə parlamenti: Beynəlxalq birliyi Ermənistanın hücumlarından zərər görən Azərbaycanın yanında olmağa dəvət edirik



SİYASİ PARTİ GRUPLARININ ERMENİSTAN'IN AZERBAYCAN'A SALDIRILARINI KINAYAN ORTAK BİLDİRİ METNİ

Türkiye Büyük Millet Meclisi'nde grubu bulunan siyasi partiler olarak, Ermenistan silahlı kuvvetlerinin 28 Eylül 2020 tarihinde Yukarı Karabağ'da ateşkesi ve uluslararası hukuku ihlal ederek ağır silahlarla Azerbaycan sivil yerleşim yerlerini ve askerlerini hedef alan saldırılarını en güçlü şekilde kınıyoruz.

Bu son saldırı Tovruz'daki saldırılardan sonra, Ermenistan'ın bölgede barışın ve istikrarın kalıcı tesisi önündeki en büyük engel olduğunu bir kez daha göstermiştir.

Bizler, uluslararası hukuktan kaynaklanan meşru müdafaa hakkı çerçevesinde halkını korumak ve toprak bütünlüğünü tesis etmek amacıyla Azerbaycan'ın gerçekleştirdiği savunmasını destekliyoruz.

30 yıla yakın süredir Yukarı Karabağ, Ermenistan'ın işgali altındadır. Bu haksız işgalin sona erdirilmesi için Birleşmiş Milletler Güvenlik Konseyi ve AGİT kararlarına uygun şekilde barışçıl çözüme desteğimizi tekrarlıyoruz. Uluslararası camiayı, bugüne kadar Ermenistan'ın işgali ve sorumsuz saldırıları sebebiyle zarar gören Azerbaycan'ın yanında olmaya davet ediyoruz.

Bu vesileyle; Gazi Meclisimizdeki siyasi partiler olarak, şehit düşen Azerbaycanlı kardeşlerimize Allah'tan rahmet, gazilere acil şifa ve can Azerbaycan'a başsağlığı dilerken, milletimizin dayanışma iradesini bir kez daha güçlü bir şekilde vurguluyoruz.

| Bülent TURAN<br>Adalet ve Kalkınma Partisi<br>Grubu Başkanvekili | Engin ÖZKOÇ<br>Cumhuriyet Halk Partisi<br>Grubu Başkanvekili | M. Levent BÜLBÜL<br>Milliyetçi Hareket Partisi<br>Grubu Başkanvekili | D.Müsavat DERVİŞOĞLU<br>İYİ Parti<br>Grubu Başkanvekili |
|---|---|---|---|

Ermənistanın Azərbaycana qarşı hərbi hücumları ilə bağlı, Türkiyə Böyük Millət Məclisində təmsil olunan siyasi partiyalar olaraq, Ermənistan silahlı qüvvələrinin 27 sentyabr 2020-ci il tarixində Dağlıq Qarabağda atəşkəsi və beynəlxalq hüququ pozaraq ağır silahlarla Azərbaycanın mülki yaşayış məntəqələrini və hərbçiləri hədəf alan hücumlarını ən sərt şəkildə qınayırıq.

AZƏRTAC xəbər verir ki, bu, Türkiyə Böyük Millət Məclisində təmsil olunan hakim Ədalət və İnkişaf Partiyası, Cümhuriyyət Xalq Partiyası, Milliyyətçi Hərəkat Partiyası və İyi Partiyanın birgə açıqlamasında əksini tapıb. Sənəddə bildirilir: “Bu son hücumlar Tovuzda törədilən hücumlardan sonra Ermənistanın bölgədə sülhə və sabitliyə ən böyük əngəl olduğunu ortaya qoyub. Biz beynəlxalq hüquqdan qaynaqlanan qanuni müdafiə haqqı çərçivəsində öz xalqını qorumaq və ərazi bütövlüyünü təmin etmək məqsədilə Azərbaycanın həyata keçirdiyi müdafiə tədbirlərini dəstəkləyirik.

Otuz ilə yaxındır ki, Dağlıq Qarabağ Ermənistanın işğalı altındadır. Bu haqsız işğalın aradan qaldırılması üçün BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarlarına uyğun şəkildə sülh məqsədli həll variantını dəstəklədiyimizi təkrar edirik. Beynəlxalq ictimaiyyəti bugünə qədər Ermənistanın işğalı və məsuliyyətsiz hücumları səbəbilə zərər görən Azərbaycanın yanında olmağa dəvət edirik.

Şəhid olan azərbaycanlı qardaşlarımıza Allahdan rəhmət diləyir, can Azərbaycana başsağlığı verir, yaralılara şəfa arzu edirik. Bir daha millətimizin həmrəylik iradəsi göstərdiyini vurğulayırıq”.

# “Azərbaycan Ordusu ermənilərə layiq olduqları cəzanı verir”

“Ermənistanın təxribatını dəf edən Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlar keçirməsi tarixi hadisədir. Hazırda biz bu günümüz və gələcəyimiz üçün xüsusi əhəmiyyət kəsb edən çox vacib hadisələrə şahidlik edirik. Azərbaycan xalqı tarixinin ən şanlı dövrlərindən birini yaşayır”. Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib. Bildirib ki, güclü hərbi-texniki bazaya malik olan Azərbaycan ordusu yüksək döyüş hazırlığı sayəsində düşmənə sarsıdıcı zərbələr vura bilib: “Qələbə yaxındadır. Düşmənin cəbhə xətti yarılıb. Erməni ordusundakı təlaş xaosa çevrilib. Hamı silahını atıb qaçır. Vəziyyət o həddə çatıb ki, düşmən ölkədə fərarilərin güllələnməsi barədə qərar qəbul edilib. Azərbaycan Ordusu təzyiqi bir az da artırsa, ermənilər bir-birini güllələyəcək”.

Seymur Verdizadə deyib ki, Azərbaycan həmişə problemin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olsa da, Ermənistan danışıqlar prosesindən yayınıb, müxtəlif bəhanələrlə münaqişənin həllini uzatmağa çalışıb: “Aqressiyanın, təcavüzün cəzası ağır olur. Azərbaycan Ordusu ermənilərə layiq olduqları cəzanı verir. Düşmən silahı yerə atıb diz çökməyənə kimi göydən başına od ələnəcək. Ermənistan güclü Azərbaycanın əllərini boğazında hiss etdikcə öz gücsüzlüyünü daha yaxşı anlayacaq”.

***Ceyhun Rasimoğlu***

# Qismən səfərbərliyə kimlərin cəlb olunacağı açıqlanıb



“Bu gün Ali Baş Komandanın müvafiq sərəncamı ilə ölkədə qismən səfərbərlik elan edilib. Qismən səfərbərliyə kimlərin cəlb olunacağı bəlli olub”. SİA-nın məlumatına görə, bunu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini general-mayor Zaur Abdullayev deyib.

Onun sözlərinə görə, sərəncamla quruma tapşırılıb ki, təsdiq edilmiş proqramlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat vəzifəsindən irəli gələn tədbirləri həyata keçirsin: “Qismən səfərbərlik zamanı təsdiq edilmiş planlara uyğun olaraq Xidmət tərəfindən ehtiyyatda olan birinci dərəcəli hərbi vəzifəlilər əsgərlər, matroslar, çavuşlar, gizirlər və mişmanlar 35 yaş, zabitlər isə hərbi rütbəsindən asılı olaraq 50 və daha yuxarı yaş həddində Ordunun komplektləşdirilməsinə cəlb olunacaq”. O həmçinin qeyd edib ki, Xidmət Silahlı Qüvvələrin sifarişləri əsasında tələb olunan sayda hərbi vəzifəlilərin və hərbi nəqliyyat vasitələrinin hərbi hissələrə təhvil verilməsini təmin etmək imkanlarına malikdir: “Xidmət adından hərbi vəzifəlilərin diqqətinə çatdırırıq ki, onlara zənglər və smslər daxil olduqda hərbi qeydiyyatda olduqaları Xidmətin yerli idarə və şöbələrinə gəlsinlər”.

***Aysel Məmmədova***

# Sinan Oğan: “Paşinyanın beynini dolduran Anna Akopyandır”



Paşinyanın beynini dolduranlardan biri də silahlarla poz verən arvadı Anna Akopyandır”. SİA xəbər verir ki, bu barədə TÜRKSAM rəhbəri, tanınmış türk politoloqu Sinan Oğan “Twitter” hesabında işğalçı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlara münasibətini yazarkən qeyd edib.

“Ermənistanın Baş naziri Nikol Paşinyanın beynini çox pis doldurublar”, yazan politoloq əlavə edib ki, müharibəni “İnstagram pozu” zənn edən, mülki şəxslərdən 100 min nəfərlik ordu quracağını söyləyən, hərbi geyim və silahlarla poz verən Anna Akopyan ərinin beynini kifayət qədər doldurmağa müyəssər olub.

Sinan Oğanın paylaşımına türkiyəli “Twitter” istifadəçiləri böyük maraq göstərib. Azərbaycan xalqına və ordumuza çoxsaylı dəstək mesajları yazılıb.

# Vüqar Bayramov: “Əzmkarlığı ilə seçilən Ordumuz düşmən təxribatının qarşısını layiqincə almaqdadır”



“Kəndlərimizin, mülki vətəndaşlarımızın düşmən atəşinə məruzqalma faktı var. Ancaq döyüş şəraiti Azərbaycan Ordusunun tam nəzarəti altındadır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Füzuli rayonunu təmsil edən deputat Vüqar Bayramov bildirib.

V.Bayramov bildirib ki, yüksək əhval-ruhiyyəsi, əzmkarlığı ilə seçilən Ordumuz düşmən təxribatının qarşısını layiqincə almaqdadır. Bu həssas məqamda milli birlik nümayiş etdirməyimiz də vətənpərvərlik hissinin göstəricisidir. Ali Baş Komandanımıza, Ordumuza güvənərək tezliklə qələbə qazanacağımıza inanırıq. Bizim işimiz haqq işidir.

Deputat mövcud durumla bağlı davamlı olaraq insanları doğru məlumatlandırmağın, dezinformasiyaların qarşısını almağın önəmini vurğulayıb.





# Ermənistan ordusunun dinc əhaliyə qarşı vandallığı



***Ön xətdə Azərbaycan Ordusunun əks-hücumu qarşısında tab gətirməyən düşmən cəbhəboyu ərazilərdəki yaşayış məntəqələrini, mülki insanların evlərini artilleriya atəşinə tutmaqda davam edir. Cəbhə bölgəsində yerləşən digər rayonlarda olduğu kimi, Tərtərdə də yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində mülki şəxslərdən ölən və yaralananlar var, evlərə və infrastruktura ciddi ziyan dəyib.***

Tərtər şəhər sakini 84 yaşlı Aşur Muradov düşmən təxribatlarına baxmayaraq heç zaman doğma şəhərini tərk etmədiyini bildirdi: “İstər 1990-cı illərin əvvəllərində, istərsə də sonrakı dövrlərdə - 2016-cı ilin aprelində Tərtər dəfələrlə düşmənin hücumlarına, top atəşlərinə məruz qalıb. Amma nə mən, nə də ailəm heç vaxt şəhərimizi tərk etməmişik. Çünki biz öz torpaqlarımızdayıq, öz şəhərimizdəyik və Vətənimizi sevirik. Düşmən bilsin ki, təxribatları ilə heç nəyə nail ola bilməyəcək. Qüdrətli ordumuz bütün torpaqlarımızı işğalçılardan azad edəcək”.

Sonra ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində dağılan evlərdən bir neçəsinə baş çəkdik. Tərtər şəhər sakini Zenfira Sultanova ilə düşmən mərmisinin partlaması nəticəsində dağılan evinin qarşısında söhbət etdik. O bildirdi ki, mərmi evə düşən vaxt xoşbəxtlikdən evdə olmayıblar: “Biz evdən çıxandan 10 dəqiqə sonra mərmi düşdü. Evi yeni təmir etmişdik. Ancaq evimizin dağılmasına görə məyus olmuruq. Təki erməni işğalına son qoyulsun. Təki qələbə qazanaq”.











Digər sakin Elxan İsmayılov dedi ki, ermənilər şəhəri atəşə tutanda küçədə olub: “Qəfildən yaxınlıqda güclü partlayış səsi eşidildi. Baxdım ki, evimiz dağılıb”.

Tərtər rayonunda məcburi köçkünlər üçün salınan yaşayış kompleksi də düşmənin artilleriya atəşinə məruz qalır. Biz yaşayış kompleksində olarkən də ərazidə çoxsaylı mərmi partlayışlarının şahidi olduq. Lakin partlayış səsləri və dağıntılara baxmayaraq məcburi köçkünlərin çöhrəsində nikbinlik, qələbəyə əminlik, torpaqlarımızın işğaldan azad olunacağına böyük inam hiss edilirdi.

Elə Kəlbəcər rayonundan olan məcburi köçkün Münəvvər Cəmilova da tezliklə doğma yurdlarına qayıdacaqlarına əminliyini ifadə etdi. “Eşidilən atəş səsləri, partlayışlar bizi qorxutmur. Hər birimizi düşündürən əsas məsələ doğma torpaqlarımızın azad olunmasıdır. Ordumuzun bir sıra kəndlərimizi və yüksəklikləri azad etməsi xəbərini eşidəndə sevincdən gözlərimiz yaşardı. Murov zirvəsinin azad edilməsi isə doğma Kəlbəcərimizə qayıtmaq inamımızı daha da artırdı. Biz ordumuzun qələbə qazanacağına, bütün torpaqlarımızın azad olunacağına əminik”, - deyə Kəlbəcərdən olan məcburi köçkün bildirdi.

# “Azərbaycan Ordusunun bugünkü döyüş əzmi xalqa, Vətənə sevginin təzahürüdür”

***Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında bir daha bəyan etdi ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bizim milli məsələmizdir. Biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun, tarixi ədalət bərpa edilsin, ölkəmizin ərazi bütövlüyü bərpa olunsun. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev Dağlıq Qarabağ probleminin həllində üç əsas amili önə çəkirdi: dövlətin qətiyyəti, xalqın iradəsi, beynəlxalq dəstək. Rəsmi Bakı ən yüksək tribunalardan Azərbaycanın dəyişməz mövqeyini qətiyyətlə bəyan edir: Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola bilməz. Xalqımız öz iradəsini ortaya qoyaraq Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin əmrini hər an gözləyirdi. Məsələnin həllində üçüncü amil olan beynəlxalq dəstək isə göz önündədir. Göründüyü kimi, münaqişənin həlli üçün bütün əsaslar mövcuddur. Lakin günü bu gün də nizamlanma prosesini uzadan işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi, dünyanın hələ də işğala “Dur!” deməkdə tərəddüd etməsidir”.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə deyib: “Xalqımız tam əmindir ki, dövlətimizin uğurlu siyasəti, Azərbaycan Ordusunun gücü, qüdrəti nəticəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaq, ölkəmizin həyatında, inkişaf tarixində yeni bir mərhələ başlayacaq. Azərbaycan Prezidenti hər zaman bildirir ki, o, xalqa arxalanır, xalqdan güc alır. Təbii ki, hər zaman xalqının yanında olan, onun daha yaxşı, təhlükəsiz şəraitdə yaşamasını istəyən, Azərbaycanın ən yüksək zirvələri fəth etməsi üçün təkmil islahatlar həyata keçirən, ən əsası, Azərbaycanın sözünü imzası qədər dəyərli edən dövlətimizin başçısına milyonların sevgisi, dəstəyi şəksizdir. Xalq-iqtidar birliyi fonunda hər bir çətinlik dəf edilir, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunur”.

“İki sahil” qəzetinin baş redaktoru diqqəti Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də müxtəlif istiqamətlərdə hücumlarına, Azərbaycan Ordusunun əks-hücum əməliyyatları nəticəsində hərbi təxribatın qarşısını qətiyyətlə almaq üçün göstərdiyi şücaətə yönəldərək bildirib ki, bu əməliyyat nəticəsində bir neçə yaşayış məntəqəmiz işğaldan azad olunub. Xalqımızı bu münasibətlə təbrik edən dövlətimizin başçısı İlham Əliyev bəyan edib ki, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Nizami Silahlı Qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, xalq-ordu birliyinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan işlərin müsbət nəticəsini göstərdiyini bildirən Vüqar Rəhimzadə vurğulayıb: “Bu gün böyük inam və qətiyyətlə bildiririk ki, ordumuzun döyüş ruhu, hazırlıq səviyyəsi düşmənə cavab verməyə, ona qalib gəlməyə yetərlidir. Əsgərlərimizin mənəvi-psixoloji durumu, ruh yüksəkliyi, vətənpərvərliyi də ən yüksək səviyyədədir. Silahlı Qüvvələrimizin şəxsi heyəti istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır, buna qadirdir və bunun üçün böyük imkanlara malikdir. Azərbaycan insanı özünü məğlub deyil, hər an qələbəyə doğru addımlayan qüdrətli bir dövlətin vətəndaşı hesab edir”.

“Azərbaycan xalqı bu gün həm həyəcanlı, həm də qürurverici günlərini yaşayır”, - söyləyən baş redaktor qeyd edib ki, Azərbaycanın cəbhə bölgəsində torpaqlarımızı qoruyan, ölkəmizin təhlükəsizliyinin keşiyində dayanan ordusu ilə yanaşı, onunla daim bir olan, əldə etdiyi qələbələrlə fəxr edən xalqımız var. Xalqla ordunun birliyi həm xalqın, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Prezident İlham Əliyev qeyd etdiyi kimi, bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir.

V.Rəhimzadə bildirib ki, Prezident İlham Əliyev qeyd etdiyi kimi, biz müharibə istəmirik. Amma Azərbaycanın işğal altında olan torpaqlarını istənilən yolla azad etməsi onun suveren hüququdur. “Çox qürurverici haldır ki, Azərbaycan Ordusu üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə qadir olduğunu nümayiş etdirir. Düşmənin təxribatlarının qarşısını layiqli cavab tədbirləri ilə alan ordumuz hansı imkanlara malik olduğunu bir daha işğalçı dövlətə göstərir. Düşmən müzəffər Azərbaycan Ordusundan aldığı cavabı, zərbəni uzun müddət unutmayacaq. İşğal altındakı ərazilərimizin azadlığı uğrunda həlak olan əsgərlərimizə Allahdan rəhmət diləyirik. Onlar şəhidlik zirvəsinə ucalaraq qəhrəmanlıqları ilə gənclərimiz üçün nümunədirlər. Torpaq, əgər uğrunda ölən varsa Vətəndir. Şəhid verməyi bacaran xalq yenilməzdir. Azərbaycan xalqı müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid verməyi bacardığını dəfələrlə sübut edib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqını heç zaman məğlub etmək mümkün deyil, millətimiz mərd və yenilməzdir. “Mən əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edirəm. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!”, - söyləyən dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında ermənilərin təxribatı nəticəsində Azərbaycan hərbçilərinin, mülki şəxslərin həlak olduğunu önə çəkərək onların qanının yerdə qalmayacağını bəyan edir”, - deyə V.Rəhimzadə diqqətə çatdırıb.

Bu gün Ermənistan heç bir sahədə Azərbaycanla rəqabət aparmaq imkanında deyil. İqtisadi böhran içərisində çabalayan işğalçı dövlətin güclü ordudan danışmasının qeyri-mümkün olduğunu bildirən baş redaktor vurğulayıb: “Ən əsası, Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusu qarşısında dayanmaq iqtidarında deyil. Artıq heç kim üçün sirr deyil ki, bu və ya digər güc mərkəzləri işğalçı dövləti silahlandırmaqla ona ölkəmizə qarşı yeni müharibəyə başlamaq üçün dəstək göstərsələr də, Azərbaycanın güclü, qüdrətli ordusunun hər an belə çirkin təxribatların qarşısını böyük qətiyyətlə aldığının şahididirlər. İrəli, Azərbaycan əsgəri! Eşq olsun Azərbaycan əsgərinə! Xalqımız daim dövlətimizlə, suverenliyimizin qarantı olan ordumuzla birlikdədir. İyul hadisələrindən sonra istər ölkə daxilində, istərsə də xaricdə orduya dəstək adı altında keçirilən yürüşlər, aksiyalar da deyilənlərin təsdiqidir. Hər bir Azərbaycan vətəndaşı bir amal uğrunda mübarizə aparır - Torpaqlarımızı işğaldan azad etmək üçün yumruq kimi birləşmək. Bu qüvvə yalnız sayla ifadə olunmur. Bu, eyni zamanda, iradənin, qətiyyətin, xalqa, millətə, torpağa sevginin təzahürüdür. Son hadisələr göstərir ki, Azərbaycan torpaqlarının işğal altında olması uzun sürməyəcək. Tezliklə münaqişə hansı yolla olursa-olsun öz ədalətli həllini tapacaq, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq”.




## İstanbulda Azərbaycana dəstək mitinqi keçirilib

Sentyabrın 28-də ölkəmizin İstanbuldakı Baş Konsulluğunun qarşısında “Səninləyik Azərbaycan, səninləyik Qarabağ!” şüarı ilə Azərbaycana dəstək mitinqi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir İstanbul Türkiyə-Azərbaycan Dərnəyinin (İSTAD) təşkilatçılığı ilə baş tutub.




Aksiyada İSTAD-ın sədri Səfər Qaraqoyunlu media üçün açıqlamanı oxuyub.

Açıqlamada deyilir: “İyirmi səkkiz ildir haqsız yerə işğal edilən torpaqlarımızın azadlığı bütün türk millətini həyəcanlandırdı. Vətənin işğaldan azad edilməsi uğrunda şəhid olan qardaşlarımıza rəhmət, yaralılarımızın tezliklə sağalmalarını diləyirik. Azərbaycan torpaqlarını işğal edərək 28 ildir qanunsuz şəkildə bölgədə qeyri-sabitlik yaradan, Xocalı soyqırımı daxil olmaqla, qətliamlar törədərək minlərlə günahsız insanı vəhşicə qətlə yetirən, beynəlxalq hüququ heçə sayaraq tərəfdarlarından aldığı dəstəklə Azərbaycanın 20 faiz torpağını işğal edən Ermənistanı sərt şəkildə qınayırıq. Bölgədə sıxışıb qalan, iqtisadi və siyasi problemlər yaşayan Ermənistan Azərbaycana hücum etməklə öz aləmində çıxış yolu tapmaq istədi. Beynəlxalq səviyyədə tanınmış Qarabağ torpaqlarının Azərbaycana aid olduğuna dair hüquqi sənədlər var. Bu qərarlara məhəl qoymayan Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz fəaliyyət göstərməyə davam edir. Buna cavab olaraq Azərbaycan müdafiə hüququndan istifadə edərək işğal olunmuş əraziləri geri qaytarmaq üçün hərəkətə keçib. Azərbaycan dövlətinin bu təşəbbüsünü tam dəstəkləyirik. Bəzi güclərə arxalanan Ermənistan bölgədə sülhün bərqərar olması üçün Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz tərk etməlidir. 83 milyonluq Türkiyə xalqı və 300 milyonluq türk dünyası olaraq Azərbaycanın haqlı mübarizəsində sonadək qardaşlarımızın yanındayıq. Türk millətinin səbiri daşıb, “Bəsdir artıq!” deyirik”.

Sonra dərnək rəhbəri Azərbaycan Ordusundan gələn son sevindirici xəbərləri tədbir iştirakçıları ilə bölüşüb. Azərbaycan və Türkiyə bayraqlarının dalğalandığı mərasimdə Ordumuza və Azərbaycana dəstək şüarları səsləndirilib.

Tədbirdə hər iki ölkənin ictimai, mədəniyyət xadimləri, Türkiyədə yaşayan həmvətənlərimiz, burada fəaliyyət göstərən qurumların əməkdaşları və KİV nümayəndələri iştirak ediblər.

## Azərbaycanda koronavirus infeksiyasından daha 70 nəfər sağalıb, 38 yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 70 nəfər sağalıb, 38 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 40 min 61 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 725 nəfər müalicə olunaraq sağalıb, 588 nəfər vəfat edib. Aktiv xəstə sayı 1748 nəfərdir. Ötən müddət ərzində 1 milyon 104 min 783 test aparılıb. Bugünkü test sayı isə 2382-dir.

## "Artıq Ermənistana, ermənilərə və onların havadarlarına heç bir güzəşt olmamalıdır və olmayacaq"


Jalə Əliyeva
Millət vəkili

"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər var, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxır. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Bu fikirləri Azərbaycan xalqına müraciətində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev dilə gətirdi. Bəli, faşist və nasist Ermənistan bir daha əsl murdar və riyakar, fitnəkar və təxribatçı simasını açıb ortaya qoydu. Bir daha işğalçı və təcavüzkar, sülhə və təhlükəsizliyə təhdid, təhlükə olduğunu dünyaya nümayiş etdirdi. Bir daha göstərdi ki, onun cavabı yalnız silahla, hərblə, savaşla verilməlidir. Bəli, istədiyi cavab da layiqli şəkildə verilib, verilir və veriləcək.

Artıq Ermənistana, ermənilərə və onların havadarlarına heç bir güzəşt olmamalıdır və olmayacaq.

Biz hər zaman sülh tərəfdarı olmuşuq, işğala, təcavüzə məruz qalsaq da, sülhün baş tutması, əmin-amanlığın yaranması üçün daim əməli, səmimi addımlarımızı ortaya qoymuş, iradəmizi nümayiş etdirmişik. Ümumiyyətlə, 32 ildir səbr, dözüm göstərmişik. Amma səbrin də, dözümün də bir həddi var. Həm iyul hadisələri, həm də son bir neçə gündə və bu gün səhər tezdən baş verənlər səbrə, dözümə artıq yer qalmadığını göstərdi. Hərb variantından, müharibədən başqa yol-yolumuzun olmadığını ortaya qoydu. Bunu biz istəmirdik, bunu ermənilər, Ermənistan, onların havadarları istəyirdi və istədiklərini də aldılar, alacaqlar. Onlara layiqli cavab verilib, verilir və veriləcək.

Cənab Prezident özü də öz müraciətində bir daha dedi:"İyul təxribatından sonra demişdim ki, Ermənistanın acı məğlubiyyəti onlar üçün dərs olmalıdır. Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Bu gün Ermənistan tərəfindən mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat törədildi. Qeyd etdiyim kimi, onlar öz cəzalarını alıblar və alacaqlar".

Bəli, bu saatlarda, bu dəqiqələrdə belə düşmənə layiqli cavab verən Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Belə olan halda, erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun, işğal ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Bir sözlə, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Ali Baş Komandanımızın müraciətində də deyildiyi kimi, "Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

## Asim Mollazadə: "Siyasi partiyaların birgə mövqeyi önəmlidir"



"Azərbaycanın ərazilərini işğal etmiş Ermənistan getdikcə bu işğalı genişləndirmək barədə düşünür.Təbii ki, Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın təxribatlarına layiqli cavab vermək üçün yetərincə gücü var. Hazırda cəbhə xəttində baş verənlər bunu bir daha təsdiqləyir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı Asim Mollazadə deyib.

Asim Mollazadə bildirib ki, hazırda bütün Azərbaycan cəmiyyəti ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmrinə hazır olmalıdır. Onun sözlərinə görə, Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışı zamanı işğalçı Ermənistanın bundan sonra da təcavüzkar niyyətləri barədə dünya birliyini məlumatlandırdı. Artıq biz sentyabrın 27-də Ermənistanın yeni hərbi təxribatının şahidi olduq.

"Prezident İlham Əliyev xalqa müraciətində Azərbaycanın haqlı mövqedə olduğunu dəqiq ifadə etdi. Dinc insanları, yaşayış məntəqələrini atəşə məruz qoyan Ermənistan mütləq cəzalandırılmalıdır. Hazırkı şəraitdə milli həmrəylik mühüm şərtdir. Bu mənada ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar da vahid mövqedən çıxış etməlidir. İndiki vəziyyətdə siyasi partiyalar üçün Azərbaycan dövlətçiliyi, müstəqilliyimiz və ərazi bütövlüyümüz ən mühüm amildir, ümummilli məsələlərdə birlik nümayiş etdirilməlidir. Siyasi partiyaların mütləq əksəriyyəti bu məsələdə vahid mövqedən çıxış edirlər. Torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan mübarizədə siyasi partiyaların birgə mövqeyi və dialoqu önəmlidir",-deyə A.Mollazadə vurğulayıb

## Azər Paşa Nemətov: "Qüdrətli Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı qısa zamanda azad edəcək"



Ermənistan dünyada təcavüzkar dövlət kimi tanınır. Ermənilərin ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın bir qismı işğala məruz qalıb. Dövlətimiz hər zaman ərazi bütövlüyünün bərpa edilməsi və erməni hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması məsələsinə xüsusi diqqət yetirib. Prezident İlham Əliyev bütün beynəlxalq platformalarda işğalçı dövləti silahı yerə qoymağa və sülhə nail olmağa səsləyib. Hər vəchlə, Ermənistanın siyasi və hərbi rəhbərliyi bir bəhanə ilə danışıqlara mane olub.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətov deyib.

Müsahibimiz bildirib ki, münaqişənin dinc yolla həll olunması üçün uzun illər danışıqlar aparılıb. Ancaq gəldiyimiz qənaət bu olub ki, Ermənistan siyasi hakimiyyəti öz məkrli siyasətindən əl çəkmir. Bu günlərədək Azərbaycanın işğal olunmuş əraziləri nəinki işğal altında qalmaqda davam edib, hətta bütün beynəlxalq hüquq normalara zidd olaraq, burada müxtəlif növdən olan qeyri-qanuni fəaliyyət aparılması meyilləri güclənib. Bu hallar da ölkəmizi narahat edib və dövlətimizin başçısı tərəfindən dəfələrlə aidiyyəti beynəlxalq təşkilatlara məlumat verilib. Ancaq yenə də düşmən öz bildiyini edib.

"Biz çox yaxşı başa düşürük ki, Ermənistan-Azərbaycan münaqişənin ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə söykənən əsasda çözülməsi Cənubi Qafqazın gələcəyi baxımından müstəsna əhəmiyyət kəsb edirdi. Ermənistan rəhbərliyi bütün imkanları tükəndirdi, bircə yol qaldı ki, Azərbaycan öz işğal altındakı torpaqlarını müharibə yolu ilə qaytarsın. İki gündür Azərbaycanın rəşadətli ordusu cəbhənin bütün istiqamətlərində üstünlüyü ələ alıb, düşmənə ağır zərbələr endirilir. Bir neçə kəndimiz işğaldan azad olunub. Bu mənada, ordumuzun əzmi və ruh yüksəkliyi bizi çox sevindirir. Ümid edirəm ki, işğal altında olan bütün torpaqlarımız işğaldan tam azad olunacaq. Ordumuza güvənirik, daim ordumuzun yanındayıq. Qüdrətli Azərbaycan Ordusu güvənc yerimiz, qürur mənbəyimizdir. Biz belə bir qüdrətli ordu ilə işğal altında olan torpaqlarımızı qısa zamanda azad edəcəyik. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin siyasəti Azərbaycanı ən güclü dövlətlərdən biri edib və etməkdə davamlı olacaq. Yaşasın, Azərbaycan. Qarabağ Azərbaycanındır, Azərbaycandır".

## Mənsum İbrahimov: Azərbaycanda hər kəs bu Vətənin müsəlləh əsgəridir



Vətənin bu günlərində heç kim kənarda qalmamalı, hər kəs dövlətimizə və ordumuza əlindən gəldiyi qədər dəstək verməlidir. Qoy düşmən bilsin ki, bizə qarşı atdığı hər bir məkrli addım cavabsız qalmayacaq. Qoy düşmən bilsin ki, bu torpaq şəhid olmuş hər bir əsgərin, gizirin, zabitin yerinə yüzünü, minini yetişdirəcək. Qoy bütün dünyaya agah olsun ki, Azərbaycanda kimliyindən asılı olmayaraq hər kəs bu Vətənin müsəlləh əsgəridir. Biz qanla yoğrulmuş bu torpağı şərəfsiz və murdar məxluqlara nə təslim edər, nə də onları rahat yaşamağa qoyarıq!

Azərbaycan Prezidentinin qətiyyətli addımları sayəsində tezliklə torpaqlarımız azad ediləcək. Bu gün Azərbaycan növbəti dəfə Ermənistan silahlı birləşmələrinin hücumuna cavab olaraq öz haqq savaşına, ərazi bütövlüyünün təmin olunmasına ciddi qərar verib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi bizim müqəddəs borcumuzdur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında tanınmış xanəndə, Xalq artisti, Milli Konservatoriyanın professoru Mənsum İbrahimov deyib.

"Şanlı Ordumuz düşmənə layiqli cavab verərək onların təxribatının qarşısını almağa müvəffəq olub. Nəhayət ki, uzun illərin gözləntisindən sonra 27 sentyabr səhərini xoş müjdəli xəbərlə açdıq. Şanlı Ordumuz mənfur düşmənin cəbhəboyu çoxsaylı təxribatlarına cavab olaraq, əks-həmləyə keçib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətlə dediyi "Biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik",- fikri hər bir Azərbaycan vətəndaşında böyük qürur hissi doğurur. İnanırıq ki, rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə tezliklə bayrağımızı Şuşada, Xankəndində dalğalandıracaq",-deyə Xalq artisti vurğulayıb.

## "Ordumuz tezliklə Dağlıq Qarabağda sülhü bərqərar edəcək"

"Təəssüf ki, bu gün Ermənistanın baş naziri Azərbaycana qarşı yönəlmiş təxribatı dünya ictimaiyyətinə başqa cür təqdim etməyə çalışır. Lakin mülki əhalimizə qarşı bu gün də davam edən soyqırım siyasəti ermənilərin xislətini bir daha ortaya qoyur. Bu, heç bir müharibə qanunlarına və insanlığa sığmır". Bunu SİA-ya Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.



Onun sözlərinə görə, Azərbaycan Prezidenti dəfələrlə Ermənistanın siyasi rəhbərliyini danışıqlar prosesinə ciddi yanaşmağa çağırdı, əvəzində Ermənistanın baş naziri Şuşada özü üçün əyləncə məclisləri düzənlədi, Qarabağ Ermənistandır bəyanatı verdi və Azərbaycanın işğal olunmuş bölgələrində süni köçürmə siyasəti həyata keçirdi: "Düşünürəm ki, vəziyyətin bu həddə gəlib çatmasına birbaşa günahkar olan Ermənistan hakimiyyətidir, danışıqlardan yayınmaq və bu prosesə Dağlıq Qarabağdakı qondarma rejimi tərəf kimi təqdim etmək ən böyük səhv addım idi.

İndi isə Ermənistanın yalançı hakimiyyəti dünya ictimaiyyətinə bu əməliyyatları Dağlıq Qarabağdakı xalqa qarşı yönəlmiş bir addım kimi qələmə vermək istəyir. Lakin bacarmayacaq, çünki rəsmi Bakı Ermənistandan fərqli olaraq müharibəni beynəlxalq konvensiyalara uyğun aparır, mülki əhalini hədəf almır, əsas məqsədi Ermənistanın Azərbaycana qarşı olan təcavüzünü aradan qaldırmaq və öz torpaqlarından terrorçuları qovub çıxarmaqdır. Bu gün Ali baş komandanın əmri ilə Azərbaycan dövləti və ordusu 30 il danışıqlar yolu ilə baş tutmayan sülhü düşmənin hücumunu dəf etməklə öz ərazisində bərqərar edir, Ermənistanı sülhə məcbur edir və bütün dünya dövlətləri bunu anlayışla qəbul edir, çünki hər kəs Azərbaycanın bu məsələdə haqlı olduğunu və beynəlxalq hüququn bizim tərəfdə olduğunu görür.

Son 4 ildə Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı üç dəfə hərbi təxribatlara əl atdılar, körpə, yaşlı və qadın baxmadan mülki əhalimizi qətlə yetirdilər. Əvəzində isə işğal etdikləri bir qarış torpağı belə güzəştə getmək istəmədilər, 30 ildir ki, Azərbaycanın minlərlə məcburi köçkünü öz torpaqlarına, ata-baba yurdlarına qayıda bilmir, ermənilər isə utanmadan və həyasızcasına Dağlıq Qarabağda Şuşanın işğalını qeyd edirdilər, onlar bilməli idilər ki, bir gün Azərbaycan əsgəri bunların hesabını onlardan soruşacaq. Həmən gün gəlib çatdı, Azərbaycan ordusu tezliklə Dağlıq Qarabağda sülhü bərqərar edəcək və bayrağımızı dalğalandıracaqdır".

**Ceyhun Rasimoğlu**

# İşğaldan azad olunan ərazilər necə bərpa ediləcək?

## Qarabağın qısa müddətdə sosial-iqtisadi inkişafı üçün hansı imkanlar var və dövlət buna hazırlıqlı vəziyyətdədirmi?







***Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi əməliyyatı daha bir vacib məsələni aktuallaşdırır. Həmin ərazilər tam azad olunduqdan sonra dağıdılmış infrastrukturun, xaraba qoyulmuş şəhər və kəndlərin bərpası dövlətimizin qarşısında duran əsas məsələlərdən biridir. Bəs bunun üçün hansı imkanlar, hansı planlar, hansı qərarlar var? Bu yazıda həmin məsələlərə toxunacağıq.***

Əvvəla qeyd edək ki, Prezidentin 1996-cı il 12 iyul tarixli 471 nömrəli Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası və onun işçi orqanı olan Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik yaradılıb. Agentliyin missiyası Ermənistan silahlı qüvvələrinin hərbi əməliyyatları nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş Azərbaycan ərazilərinin bərpası və yenidənqurulması məqsədilə aparılan bərpa işlərinin koordinasiyasını və məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması üçün onların həyat və məişətində minimum tələbatlara cavab verən şəraitin yaradılmasını təmin etməkdən ibarətdir.

Aydın məsələdir ki, işğaldan tam azad olunan ərazilərdə sosial-iqtisadi inkişaf üçün xüsusi dövlət proqramı işlənəcək və sürətli bərpa üçün qısa müddətdə bütün imkanlardan istifadə ediləcək. Həmçinin, əhalinin yenidən məskunlaşdırılması üçün hər cür işlər görüləcək.

### Prezident: “İşğaldan azad ediləcək bütün əraziləri qısa müddətdə bərpa edəcəyik”

İndiyədək işğaldan azal edilmiş ərzilərdə, kəndlərdə sosial-iqtisadi infrastrukturun bərpa üçün böyük işlər görülüb. 2017-ci ildə, işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində yeni qəsəbənin açılışı olub. Bu iki ay ərzində tikilmiş 50 ev, məktəb, yol və bütün lazımi infrasturktur yaradılıb. Dövlət başçısı bütün azad olunmuş ərazilərin də beləcə və daha yüksək səviyyədə bərpa ediləcəyini bildirir: “Biz işğaldan azad ediləcək bütün əraziləri qısa müddət ərzində bərpa edəcəyik. O ərazilərə də həyat qayıdacaq, o ərazilərdə də Azərbaycan bayrağı qaldırılacaq. Necə ki, bu gün Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında işğaldan azad edilmiş torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, quruculuq işləri aparılır.

Cocuq Mərcanlı erməni faşizminin canlı şahididir. Bu kənd cəmi 3-4 ay ərzində işğal altında olmuşdur. O kənddə bir dənə də salamat bina qalmamışdır. Erməni vəhşiləri bütün binaları dağıdıblar. Ancaq biz bu kəndi 2 ay ərzində bərpa etdik və əlavə 100 evin tikintisi də yaxın zamanlarda öz həllini tapacaq. Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Bu da böyük tarixi məna daşıyır. Cocuq Mərcanlı və digər torpaqlar bizim əzəli torpaqlarımızdır. Biz bu torpaqlarda yeni həyat yaradırıq.

Bu, onu göstərir ki, Azərbaycan xalqının iradəsini heç kim sındıra bilməz. Mən əminəm ki, biz işğal edilmiş bütün torpaqlara qayıdacağıq, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və o torpaqlarda bərpa və yenidənqurma işləri qısa müddətdə başa çatdırılacaq”.

### Sosial infrastrukturun bərpası üçün yetərli imkanlar varmı?

Əlbəttə, işğalda olan ərazilərimiz böyükdür və bu 12 rayonda yüzlərlə dağılıdılmış kənd, qəsəbə, şəhər, on minlərlə sosial obyekt, həmçinin müəssisə və təsərrüfatlar, təbii və mədəni-tarixi abidələr var. Onların bərpa üçün böyük zəhmət və vaxt tələb olunur. Lakin bu, problem təşkil etməyəcək.







Əsas məsələlərdən biri maliyyə məsələsidir. Bu qədər nəhəng işə əlbəttə, çox böyük maliyyə vəsaitləri tələb olunacaq. Bəs belə bir imkanımız varmı? Bəli var! Azərbaycanın dövlət büdcəsi və daxili fondlarından əlavə, bizim xarici fondlarda 50 milyardlıq strateji rezervlərimiz saxlanılır. Bu ehtiyatlar da məhz bu günlər üçün yığılmışdır. Həmin ehtiyatlardan bir hissəsni cəlb etməklə də bu işi görmək olar.

Üstəlik, yerli və xarici investorlar da bölgənin bərpasında da mühüm roy oynayacaq. Bu rayonlar böyük tikinti meydanına çevriləcək, yüz minlərlə iş yerləri yaranacaq. Məskunlaşma üçün heç bir problem olmayacaq. Salamat qalan evlərdən əlavə, dövlət qısa müddətdə o yaşayış məntəqələrndə yeni evlər, yaşayış binaları tikəcək. Həmşinin, fərdi ev tikmək istəyənlərə hər cür dəstək veriləcək.

Bir sözlə, Qarabağın yenidən məskunlaşdırılması üçün hər şey hazırdır və cəmi bir neçə ilə orada yeni müasir şəhərlər, kəndlər yaranacaq. Yeni mədəniyyət saraylları, idman arenaları, sanatoriyalar, təhsil və səhiyyə müəssisələrinin yaradılması bu regionu tezliklə inkişaf etmiş müasir bir diyara çevriləcək.

Bu ərazilərdə böyük təbii potensial var - böyük su ehtiyatı, meşə fondu, məhsuldar torpaqlar, nadir flora və fauna fondu. Onların da bərpası tezliklə həll olunacaq.

### Qarabağda iqtisadi inkişaf üçün mövcud və perspektiv imkanlar

Yerli əhali öz doğma yurdlarına qayıtdıqdan sonra burada həyat yenidən canlanacaq, yeni iqtisadi sahələr yaranacaq. Bunun üçün çox böyük potensial var.

Qarabağ zonası hələ Sovet dövründən inkişaf etmiş arqrar sektora, həmçinin sənaye sahələrinə malik idi. Ərazinin iqlimi, torpaq fondu burada həm aqrar, həm sənaye, həm də turizm üçün böyük perspektivlər açır.

İşğal altında olan ərazilər yeraltı təbii ehtiyatlarla da zəngindir. Ən çox yayılan faydalı qazıntılar əlvan metal filizləri, qızıl, civə, sink, mis, xromit, perlit, əhəng, mərmər, əqiq, həmçinin müxtəlif tikinti materialları yataqlarıdır.

Bundan başqa, ərazi müalicəvi mineral sularla da zəngindir. Ərazidə 120-dən artıq müalicəvi bulaqlar var. Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 40%-i işğal altında olan rayonların payına düşür.

Sovet dövründə, Qarabağın dağlıq və aran hissələrində üzümçülük, taxılçılıq, meyvəçilik, tərəvəzçilik, pambıqçılıq, tütünçülük, baramaçılıq, həmçinin heyvandarlıq sahələri inkişaf etmişdi və hazırda bu sahələrin bərpası üçün potensial böyükdür.

Sənaye sahələrindən isə, tekstil sənayesi, qida sənayesi və sair yüngül sənaye sahələri inkişaf etmişdi ki, indi də bu sahələrin bərpası üçün bütün imkanlar var.

Qarabağda turizm inkişafı üçün də çox böyük imkanlar var. Qısa müddətdə həmin ərazidə dünya miqyaslı turizm mərkəzləri yaradılacaq. Həm böyük sayda daxili turistlər, həm xaricdən gələn turistlər bölgənin inkişafına fayda verəcəklər.

Nəqliyyat infrastruktunun sürətli bərpası da vacibdir. Belə ki, vaxtilə Xankəndinədək gedən dəmiryolu, həmçinin Zəngilanadək olan dəmiryol xətləri bərpa olunacaq. Hava limanları, avtomobil yolları da təmir olunacaq.

Əlbəttə, bütün bu işlər böyük zəhmət, vaxt və maliyyə tələb edir. Lakin dövlətimizin bütün bunlara tam hazırlıqlı vəziyyətdədir, bununla bağlı aydın və dəqiq planlaşdırılmış konsepsiya da mövcuddur. Yaxın günlərdə torpaqlarımızın azad edilməsinin başa çatacağına inanırıq. Qalır bərpa işlərinə başlamaq...

***Elçin Bayramlı***

# Bəs harada qaldı Paşinyanın "hərbi ritorikası?"

*Erməni baş nazir Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycanındır!" kəlamını qəbul etmək məcburiyyətində qalıb*



**Artıq işğalçı Ermənistanın növbəti təxribatçılıq əməllərindən sonra Azərbaycan Ordusunun cəbhə xətti boyunca endirdiyi sarsıdıcı zərbələrdən canını qurtarmaqdan başqa çıxış yolu qalmayıb. Ölkənin hakim rejiminin başçısı Nikol Paşinyanın demək olar ki, aparıcı ölkələrin hər birinin rəhbərliklərinə açdığı telefon zəngləri, eyni zamanda, beynəlxalq təşkilatlara müraciətləri nəticə etibarı ilə rəsmi və formal "Tərəfləri atəşkəsə səsləyirik" tipli bəyanatlarla müşahidə olunur. Lakin bu bəyanatların söz yox ki, Azərbaycan dövlətinə heç bir aidiyyatı yoxdur.**



Çünki fakt həm də ondadır ki, 30 ildir işğal altında qalan torpaqlarımızın sülh danışıqları yolu ilə azad olunması üçün dövlətimizin beynəlxalq təşkilatlar qarşısında qaldırdığı tələblərə ciddi əhəmiyyət verən olmadı. Nəticədə bu gün həmin beynəlxalq təşkilatların, xüsusilə zaman-zaman ermənipərəst mövqeyində olan, o cümlədən, ikili standartlarla vaxt udan beynəlxalq təşkilatların "atəşi dərhal dayandırın" çağırışlarının ədalətli və haqq mübarizəsinə başlayan Vətən müharibəsi aparan Azərbaycana heç bir aidiyyatı yoxdur.

Ali Baş Komandan:
**"Biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik"**

Qeyd etmək yerinə düşərdi ki, cənab Prezident, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində də bu faktora toxunaraq bəyan edib ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik və heç kimin torpağına göz dikməmişik. SİTAT: "Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

**"Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun"**

Beləliklə, hələ bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyanın "hərbi ritorikası" vasitəsi ilə Azərbaycana "xox" gəlməsi indi onun yalvarışları ilə əvəzlənib. Çünki yaxşı bilir ki, ordusu məğlub olmaqla yanaşı, həm də özünün siyasi ömrü tükənir. Halbuki dövlətimizin başçısı Təhlükəsizlik Şurasının iclasındakı öz çıxışı əsnasında da xatırladıb ki, vaxtilə o xəbərdarlıq edib və erməni tərəfi bu xəbərdarlıqları qulaqardına vurublar. SİTAT: "Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr peşman olacaqlar.

"Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir. Onu da bildirməliyəm ki, bizim bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyi var. Eyni zamanda, ordumuza könüllü yazılanların sayı on minlərlə insanı əhatə edir. Bu, xalqımızın öz dövlətinə sadiqliyini göstərir. Dağlıq Qarabağ məsələsi bizim milli məsələmizdir. Dağlıq Qarabağ məsələsinin həlli bizim tarixi vəzifəmizdir. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm, biz bu məsələni elə həll etməliyik ki, Azərbaycan xalqı bundan razı olsun. Biz bunu elə həll etməliyik ki, tarixi ədalət bərpa edilsin. Biz bunu elə etməliyik ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun".

Məhz bu xüsusdan təhlilimizi apararsaq həm də belə bir nəticəyə gələ bilərik ki, işğalçı Ermənistan ordusunun ağır məğlubiyyətə düçar olmasının, dövlətin isə tamamilə idarəçilik qabiliyyətinin itməsinin bütün məsuliyyəti həmin ölkənin hərbi-siyasi hakimiyyətinin üzərindədir. Beləliklə, irəliləyən hər saat, hər dəqiqə qələbəmizə daha da yaxınlaşdırır!

*Rövşən RƏSULOV*

## İran mətbuatı Azərbaycan Ordusunun əks-hücum əməliyyatından yazır



İran mətbuatı Azərbaycan Ordusunun Ermənistanın işğalı altındakı ərazilərimizin azad edilməsi üçün həyata keçirdiyi əks-hücum əməliyyatlarından yazıb. Bu ölkənin İRNA, "Mehr", "Tasnim", "İlna", "Mizan oline", "Shafaqan" və digər saytları AZƏRTAC-a istinadla yaydıqları materiallarda Azərbaycan Ordusunun bütün cəbhə boyunca əks hücuma keçərək Ermənistan silahlı qüvvələrini ağır itkilərə məruz qoyduğu, düşmənin geri çəkilmək məcburiyyətində qaldığı bildirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Silahlı Qüvvələri bir sıra yaşayış məntəqələrini işğaldan azad edib.

İRNA agentliyində dərc olunan analitik məqalədə isə bildirilib ki, ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir uğurlu addım ata bilməyib.

Materiallarda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin hərbi əməliyyatlara görə məsuliyyətin Ermənistanın üzərinə düşdüyü barədə bəyanatı da yer alıb.

Qeyd edək ki, Ermənistanın təxribatları nəticəsində başlayan hərbi əməliyyatlara münasibət bildirən İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Səid Xətibzadə rəsmi Tehranın problemin sülh yolu ilə həllinə tərəfdar və tərəflər arasında vasitəçilik etməyə hazır olduğunu bildirib.

### "Təyyarələr yoxdur, hətta humanitar yardım göndərmək mümkün deyil"

Lakin Abramyan cinayətkar ermənilərin Ermənistana, oradan isə işğal altındakı ərazilərimizə necə gedəcəkləri ilə bağlı baş sındırır. "Təyyarələr yoxdur, hətta humanitar yardım belə göndərmək mümkün deyil", erməni "məzlumluğu" sərgiləyən Abramyan unudub ki, artıq erməni ordusunda kadrlı zabit və əsgər heyətləri fərarilik etməkdədirlər. Buna sübut kimi isə, Ermənistan müdafiə nazirliyinin qaçanları güllələmək əmri verməsidir. Bu baxımdan, hətta Rusiyada yaşayan erməni cinayətkarların belə, Qarabağa döyüşməyə getmək arzularının olması inandırıcı görünmür.

*Rövşən*



## BNA: 6500 ədəd təkər cəbhə bölgəsinə yola salınıb

Bütün cəbhə boyu uğurlu əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusuna dəstək məqsədilə "Hər şey vətən üçün" aksiyası davam etdirilir. Aksiya çərçivəsində daha 16 yük avtomobili ilə 6500 ədəd təkər cəbhə bölgəsinə yola salınıb.

Qum dolu kisələrdən fərqli olaraq təkərlər mu?dafiənin o?n xəttində mo?vqelərin muhafizəsi baxımdan olduqca əhəmiyyətli materialdır. Təkərlər do?zu?mlu? və gu?llələri saxlama xassələrinə malikdirlər. Bunu nəzərə alaraq təkərlərin toplanaraq cəbhə bölgəsinə yola salınması davamlı olaraq həyata keçirilir. Aksiyaya qoşulmaq istəyən vətəndaşlarımız Bakı Nəqliyyat Agentliyinə müraciət edə bilərlər.

Məlumat üçün bildirək ki, iyul ayından düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribatlardan sonra Bakı Nəqliyyat Agentliyi Müdafiə Nazirliyi ilə birgə "Hər şey vətən üçün" aksiyasına başlayıb. Ötən müddətdə ümumilikdə 60 yük avtomobili ilə 26500 ədəd təkər cəbhə bölgəsinə yola salınıb.

## Ermənistan Müdafiə Nazirliyi: "Əsir götürülən Azərbaycan hərbçisi yoxdur"



Ermənistan tərəfi bir nəfər də olsun Azərbaycan hərbçisini əsir götürməyib. SİA Ermənistanın aysor.am saytına istinadən xəbər verir ki, bu sözləri Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Ohannisyan deyib. Məlumatda qeyd olunur ki, Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Ermənistan tərəfinin Azərbaycan hərbçilərindən əsir götürməsi barədə yayılan xəbərləri təkzib edib. Nazirliyin nümayəndəsi Artsrun Ohannisyan bildirib ki, Ermənistan tərəfində əsir götürülən Azərbaycan hərbçisi yoxdur.

Xatırladaq ki, Ermənistan tərəfə əsir düşən hərbçilər barədə yalan informasiyalar yayılıb və sözügedən ölkənin Müdafiə Nazirliyinin nümayəndəsi bu informasiyaların yalan olduğunu etiraf edib.

## Ermənilər Rusiyadan muzdluları Qarabağa niyə göndərə bilmir?



Ermənistan ordusunda hərbi-texniki təchizat qıtlığı ilə yanaşı, canlı qüvvə də tükənmək üzrədir və bunun daha bir sübutu əməliyyatlar gedən ərazilərdə öldürülən erməni hərbi qulluqçularının meyitləri arasında Yaxın Şərq ölkələrindən gətirilmiş muzdluların da aşkar edilməsidir. Artıq Rusiyadan Dağlıq Qarabağa cinayətkar dəstələrin "20 min erməni könüllüsü" adı altında göndəriləcəyi məlumatı əldə edilib. SİA xəbər verir ki, Ermənistanın Armenianreport saytı rusların "Podyom" nəşrinə müsahibə vermiş Rusiya erməniləri ittifaqının prezidenti Ara Abramyan hətta öz erməni yalanlarına inanaraq bildirib ki, guya ruslar da Qarabağda döyüşmək üçün ona müraciət ediblər.

# Mitinq düşkünlüyü, yoxsa intiqam hissi?

***Özünü müxalifət adlandıran, cəmiyyətdə dayağı olmayan, hələ də mitinq və küçə təfəkkürü ilə yaşayan, qrantlara görə hər şeyləri satan ermənixislətli xarici qüvvələrin nökərləri olanlar 30 il əvvəlki ağıl və düşüncə, vərdişləri unuda bilmirlər. Dünya inkişaf edir, demokratik seçki, siyasi mübarizə metodoligiyası təkmilləşir. Demokratik cəmiyyətin əsas atributuna çevrilən xalqın seçimi hakimiyyətin əsas təməli kimi daha da möhkəmlənir. Və hələ də anlamırlar ki, indiki hakimiyyət milli hakimiyyətdir. Azərbaycan müxalifəti isə milli maraqlardan, millilikdən uzaqlaşıb. Müxalifət öz məqsədlərinə nail olmaq, hakimiyyətə gəlmək üçün istənilən fikri işlədir, istədiyi qüvvələrlə əməkdaşlığa gedir.***



Müxalifət ölkənin və regionun reallığını nəzərə almadan, dünyada gedən proseslərin mahiyyətini anlamadan əsassız, populist, bəyanatlar verir. Mitinq və küçə yürüşləri demokratik mübarizənin, xalqın iradəsinin və sosial sifarişin ifadəsi deyil.

Mitinq sifarişini verən xarici qüvvələr və bu sifarişin köləsinə çevrilən antimilli ünsürlər anlamırlar ki, Azərbaycan dövləti ilə xalqının monolitliyi, iqtidar və xalq birliyi bütün bu təxribatları iflasa uğradır. Azərbaycan cəmiyyəti radikal müxalifətin bu cür antimilli mövqeyini ikrah hissi ilə qarşılayır. Bütövlükdə isə, xalqın radikal müxalifətə etimad göstərməməsinin səbəbi bəllidir: ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olan, ictimai şüuru manipulyasiyaya məruz qoymağa çalışan, dağıdıcı çağırışlar edən, radikal-ekstremist qüvvələri dəstəkləyən, həmçinin bu kimi bir çox antimilli hərəkətləri fəaliyyətlərində əsas istiqamət kimi götürən dağıdıcı qüvvələrə etimad göstərmir!

### Əli Kərimli: “Biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik”

Göründüyü kimi, AXCP sədri satqın Əli Kərimli bünövrədən çirkabla həyata göz açıb. Göründüyü kimi, mitinq xəstəsi Əli Kərimli bu günlərdə katibəsi, ata qatillərinin müdafiəçisi Sevinc Osmanqızının kanalında verdiyi müsazibəsində bildirir ki, guya “sosial sifariş olduğu üçün mitinqlərə başlamaq qərarına gəliblər”. Unudur ki, sosial sifariş çoxminlyonlu cəmiyyətin hər bir üzvünün tələbidir. Məsələ ondadır ki, cəmiyyətin kiçik bir qisminin arzu və istəkləri ümumilikdə sifariş deyil, müəyyən qüvvələrin maddi-siyasi maraqlarının ifadəsidir. Gülünc və absurd düşüncə. 150-200 insanın mintinq ehtirası hansı sosial sifariş ola bilər? Ancaq mitinqin həqiqətən sifariş olduğunu da gizlətmək olmaz, bu sifarişin mənbəyi isə Azərbaycan deyil, Qərbdəki anti-Azərbaycan qüvvələridir. Bunu Kərimlinin fikirləri də çılpaqlığı ilə ortaya qoyur. Onun “biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik” fikri də xaricdən idarə olunduqlarını, sifarişin də, məhz xarici ağaların verdiyini təsdiqləyir.

Göründüyü kimi, mitinq və digər aksiyalar “Milli Şura”nın və Əli Kərimlinin qrant layihəsinin bir hissəsidir. Bu layihələrin məqsəd və məramı gizli deyil, Azərbaycan dövlətini, Azərbaycan hakimiyyətini hədəf seçmək. Həm ölkə daxilindəki “beşinci kolon” nümayəndələri, həm də “mühacir” adı ilə xaricə sığınan antimilli ünsürlər ermənipərəst mərkəzlərdən aldıqları qrantların “haqq”ını vermək üçün istənilən hadisədən, mövzudan istifadə etməklə ölkədə qarışıqlıq yaratmaqdır.

### Nədir AXCP-nin azarı?...

Azərbaycan ölkəsi inkişaf etmiş ölkələr sırasında ən yüksək pillədədir. Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Azərbaycan dövlət başçısının apardığı siyasət ona köklənib ki, hər bir Azərbaycan vətəndaşı özünü güclü dövlətin layiqli bir vətəndaşı kimi hiss edə bilsin. Humanist olması ilə yanaşı, Azərbaycan prezidenti milli maraqlarda qətiyyən güzəştə getmir.

“Beşinci kalon”un satqın “sülaləsi” - Əli Kərimlini, Sevinc Osmanqızını, Cəmil Həsənlini, Qənimət Zahidi, Xədicə İsmayılı, Vidadi İskəndərlini, Arif Məmmədovu...və bu kimi erməniyə satılanları nə maraqlandırır? Əli Kərimli deyir ki, “əgər ölkənin daxilində ciddi dirəniş olmasaydı, bu gün baş verənlər olmayacaqdı. Bunu bilin, biz meydanda olanda dünya bizi eşidəcək!”. Nə qədər rəzil düşüncə!

Başqa cür də düşünə bilməzlər. Çünki xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan bu satqın, antimilli ünsürlər və onların təlimatçıları hər cür dövlət mənafeyini satmağa, Vətəninə xəyanət etməyə hazırdır. Çünki “beşinci kalon”un satqınları xarici antiazərbaycan dairələrdən aldığı pullarla ölkəmizə, müstəqilliyimizə qarşı mübarizə aparan erməni lobbisi və terrorçularla həmişə bir səngərdə yer alan antimilli ünsürlərdir. Azərbacan dövləti və dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutur. Azərbaycanda hakimiyyət tərəfindən aparılan siyasətin ən başlıca vəzifəsi azərbaycan vətəndaşın dahada firavan yaşamasıdır.

Radikal ünsürlər isə - əməlləri ilə anti-Azərbaycan dairələrin əlaltısı qismində çıxış edən, siyasi fəallığı siyasi satqınlıq kimi qavrayan Arif Məmmədov, Ramiz və Leyla Yunuslar, Cəmil həsənli, Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli və bu kimilər açıq şəkildə ermənipərəst mərkəzlərin direktivlərinə əsaslandıqlarını ortaya qoyurlar. Bir həqiqəti anlamaq lazımdır ki, milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur. Məğlubiyyət, uğursuzluq və bacarıqsılıq boyunlarına biçilib bu satqınların və artıq tarixin istifadə olunmuşlar bölməsindəki eksponatlardır.

Fizikadakı adi hərəkət qanununa görə, dalğa bir yerdə qala bilməz; o, fasiləsiz olaraq irəli və geri hərəkət etməlidir. Tarix də elədir. İctimai həyatın çirkin ifrazatı radikal ruhlu müxalifətin sıralarında yer aldığına görə o nə isə etmək, bacarmaq, yaratmaq iqtidarında deyil. Bir də deyirlər ki, dəniz çirkab götürmür; o, yad cisimlərdən xilas olmaq üçün güclü dalğaları ilə vurub sahilə çıxarır. Öz doğuşu və təşəkkülü ilə ən yeni tariximizin ikrahdoğurucu səhifələrindən birini yazmış radikal, antimilli müxalifət də cəmiyyətimizin kükrəyən inkişaf ahənginin miqyaslarına tab gətirməyərək siyasi səhnədən silinməkdə, çökməkdə, iflas etməkdədir.

Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - mənəviyyatsız!. Bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzələrını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

***Rəfiqə HÜSEYNOVA***

## Çin mətbuatı Ermənistanın təxribatlarından yazır

Çinin nüfuzlu kütləvi informasiya vasitələri Ermənistan Respublikası silahlı qüvvələrinin təmas xəttində atəşkəs rejimini kobud şəkildə pozaraq, növbəti dəfə təxribat törətməsi və Azərbaycan Ordusunun cavab tədbirləri həyata keçirməsini diqqətdə saxlayıb. SİA xəbər verir ki, milli xəbər agentliyi Sinxua, rəsmi “Jenmin Jibao” qəzeti, nüfuzlu “China Daily” qəzeti və digər KİV-lər Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin, Azərbaycanın Müdafiə Nazirliyinin mövzu ilə bağlı açıqlamalarına geniş yer veriblər.



CHINADAILY.COM.CN
HOME CHINA WORLD BUSINESS LIFESTYLE CULTURE TRAVEL WATCHTHIS SPORTS OPINION REGIONAL FORUM NEWSPAPER MOBILE
World Asia-Pacific Americas Europe Middle East Africa China-US China-Europe China-Japan China-Africa
Home / World / Asia-Pacific

New clashes erupt in Nagorno-Karabakh, helicopters shot down

Xinhua | Updated: 2020-09-27 17:24

YEREVAN/BAKU - The Armenian Defense Ministry said on Sunday that it has shot down two helicopters and three drones of Azerbaijan in the Nagorno-Karabakh region.

The move is a response to Azerbaijan's attack on civilians settlements in the disputed territory, the ministry said.

Also on Sunday, Azerbaijan's Defense Ministry said it is currently launching a counter-offensive in the region.

Azerbaijan's state news agency Azertac reported that Armenia's 12 air-defense missile systems were destroyed while one military helicopter of Azerbaijan was shot down with crew alive during the clashes.

Most Viewed in 24 Hours
US judge suspends Trump ban on TikTok downloads
University in California quarantines all on-campus students amid COVID-19
Belarus eases security in Minsk after poll protests
FM: Solidarity vital in meeting challenges
Unusual but true: 25-year-old burger looks brand new

Special Coverage
Global fight against COVID-19

Çin KİV-ləri yazır ki, Azərbaycanın əks-həmlə tədbirləri zamanı Ermənistanın 12 ədəd zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Çin mətbuatının mövzu ilə bağlı xəbərlərində Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə ölkədə hərbi vəziyyətin elan olunması barədə məlumat verilib, BMT-nin baş katibi Antonio Quterreşin müvafiq açıqlaması, Rusiya Xarici İşlər nazirinin Azərbaycan, Ermənistan və Türkiyə xarici siyasət idarələri rəhbərləri ilə telefon danışığına da toxunulub.

Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verən Çin KİV-ləri qeyd edir ki, keçmiş Sovet İttifaqı dağıldığı dövrdə müharibə başlayıb və Ermənistan Azərbaycana məxsus ərazinin bir hissəsini işğal edib. 1994-cü ildə atəşkəs barədə razılıq əldə olunsa da, təmas xəttində mütəmadi toqquşmalar qeydə alınır.

## AXCP və Müsavatdan başqa...

### *Azərbaycanın siyasi müxalifəti dövlətin müdafiəsinə hazırdır*

Məlum olduğu kimi, Azərbaycanın bir sıra müxalif və iqtidaryönlü siyasi partiyaları birgə bəyanat yayaraq, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Qarabağın erməni işğalından azad olunması üçün əmrə hazır olduqlarını vurğulayıblar. Lakin bu xüsusda daha bir qürurverici məqam qardaş Türkiyədə fəaliyyət göstərən siyasi partiyaların (PKK mənşəli HDP istisna olmaqla) Azərbaycanın apardığı Vətən müharibəsinə birmənalı dəstəkləridir. Söz yox ki, bu məsələdə qardaş Türkiyənin göstərdiyi dəstək də sübut edir ki, “İki dövlət bir millət” şüarı altında birləşən qardaşlarımızın sevinci sevincimiz, kədəri isə kədərimizdir. Söz yox ki, müharibə itkisiz olmur və bu gün torpaqlarımızın azadlığı uğrunda şücaətlə, qəhrəmancasına döyüşərək canlarını qurban verən əsgərlərimizə “ŞƏHİDİMİZ” deyə müraciət edən türk qardaşlarımız həmin yanaşmaları ilə azərbaycanlı qardaşlarının ürəklərində taxt qururlar. Bu baxımdan, qardaş ölkədəki siyasi partiyaların Azərbaycanın haqq işinə dəstək göstərmələri barədə bəyanatlar yaymaları bizlərin qələbəyə doğru atılan addımlarımızı sürətləndirir.

### Əli Kərimli-Cəmil Həsənli cütlüyü və onların “Milli Şura”dakı çete üzvləri, həmçinin Müsavat başqanı Arif Hacılı...

Ancaq bir nüansı da xatırlatmaq yerinə düşərdi. Nədənsə, uzun illərdir bu ölkənin çörəyini yeyib, suyunu içən və adlarını “milli müxalifət düşərgəsi” qoyaraq küçə siyasəti yürüdənlər - AXCP, Müsavat kimi partiyalar, “Milli Şura” tipli qərb nökərləri Azərbaycanda birgə bəyanat yaymış siyasi partiyaların həmin bəyanatına dəstək göstərməyiblər. Yalnız sosial şəbəkələrdə alayarımçıq statusları ilə vətənsevər deyil, əslində, vətənşivən olduqlarını etiraf edən Əli Kərimli-Cəmil Həsənli cütlüyü və onların “Milli Şura”dakı çete üzvləri, həmçinin Müsavat başqanı Arif Hacılı, görünür, ölkədəki siyasi partiyaların bəyanatlarına qoşulmamaları tapşırıqlarını ermənipərəst ağalarından alıblar. Çünki belə olmasa idi, ən azından adları həmin siyahıda yer alardı.

### Tofiq Yaqubluya görə üz-gözlərini cırmaqlayan, haray-şivən qaldıran, onun Qarabağ qazisi olduğunu önə sürən bu ünsürlər indi Qarabağ məsələsində nəyə görə yaxalarını kənara çəkdilər?

Amma göründüyü kimi, hətta hakimiyyətə qarşı müəyyən mənada radikal olan KXCP, Ümid, REAL, VİP və s. kimi siyasi müxalifət partiyaları bütün umu-küsüləri birə kənara qoymaqla dövlətçiliyimizin qorunması və müdafiəsi istiqamətində bəyanata imza atsalar da, özlərini “ana” və s. müxalifət adlandıran AXCP və Müsavat bu dəfə də xalqın, dövlətin maraqlarına xidmət etmədiklərini ilə bu addımları ilə sübuta yetirmiş oldular. Buna isə bir ad vermək olar - XƏYANƏT! Bir müddət əvvəl bəlli cinayətinə görə həbs cəzası alan, ardınca aclıq aksiyası keçirən Tofiq Yaqubluya görə üz-gözlərini cırmaqlayan, haray-şivən qaldıran, onun Qarabağ qazisi olduğunu önə sürən bu ünsürlər indi Qarabağ məsələsində nəyə görə yaxalarını kənara çəkdilər? Görəsən, sosial şəbəkələrdə dilə-boğaza qoyman bu siyasi dəllalların hələ də danışmağa, tələb irəli sürməyə üzləri haradan gəlir? Axı ən azından insanda abır-həya da deyilən bir amil mövcuddur...

***Rövşən NURƏDDİNOĞLU***

# Qarabağın azad edilməsi üçün bir yol qalmışdı

## Azərbaycan Prezidenti: “Mən Ermənistana dəfələrlə xəbərdarlıq etmişdim, amma görünür ki, bu, onlar üçün dərs olmadı...”

Ermənistanın növbəti təxribatları və Azərbaycanın yaşayış məntəqələrini bombardman edərək mülki şəxslərin həlakına səbəb olmasından sonra Azərbaycan Ordusu əks-əməliyyatlara başladı və bütün cəbhə boyu Ermənistan Ordusunun bölmələrinə, eyni zamanda Qarabağdakı terrorçu rejimin silahlı dəstələrinə sarsıdıcı zərbələr vurdu. Nəticədə, döyüşlərin ilk gündə Ermənistan tərəfindən işğal edilmiş 7 yaşayış məntəqəsi azad edildi, düşmənin hücumunun qarşısı alındı. Hazırda ordumuz anti-terror əməliyyatlarını davam etdirir.

### Ermənistan həm siyasi, həm də hərbi cəhətdən dalana dirəndi

Ermənsitanın qaldırdığı beynəlxalq hay-küyə və Paşinyanın dünya fövqəldövlətlərinin, həmçinin beynəlxalq təşkilatlrın rəhbərlərinə yalvarışlarına baxmayaraq Yerevan heç bir dəstək ala bilmədi. Həm beynəlxalq təşkilatlar, həm də iri dövlətlərin rəhbərləri sadəcə, müharibəni dayandırmağa çağırış etməklə kifayətləndilər ki, bu adi diplomatik normadır.

Beləliklə, siyasi dəstəkdən məhrum olmuş Ermənistan özündən dəfələrlə üstün olan hərbi güc qarşısında təklənib. Paşinyanın Ermənstan parlamentində qorxmuş deputatlar qarşısında həyəcanlı çıxışında sülh danışıqlarına gedilməsi üçün mesaj verməsi də göstərdi ki, artıq nə baş verdiyini anlayıblar. Lakin artıq danışıqlar üçün çox gecdir.

Azərbaycan bütün imkanlardan istifadə etdi ki, qan tökülməsin, sülh yolu ilə həll edilsin. Lakin Ermənistan bütün danışıqları dalana dirədi və problemin həllində başqa yol qoymadı. Əlbəttə, sülhsevər siyasəti ilə tanınan Azərbaycan qan tökülməməsi üçün sülh danışıqlarına yenə də gedə bilərdi, yalnız bir şərtlə ki, Ermənistan öz qoşunlarını işğal etdiyi bütün torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarsın.

### Prezident İlham Əliyev : “Biz öz torpağımızda vuruşuruq”

Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində bu məsələləri dəqiqliklə ifadə edib: “Azərbaycan heç bir təxribata əl atmamışdır. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə “Qarabağ Ermənistandır”, bu, yalandır. Mən deyəndə ki, “Qarabağ Azərbaycandır”, bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır.

BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar da bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul etmişdir. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu öz torpağında



Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır”.

### Azərbaycan dünyada nüfuz sahibi kimi tanınıb

Xarici siyasətində iki və çoxtərəfli səviyyələrdə münasibətlərin qurulmasına xüsusi önəm verən dövlətimizin düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın digər ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaradıb.

Azərbaycan dünya dövlətlərinin əməkdaşlıq etdiyi məkana çevrilib. Bu gün xalqımızın mənafeləri beynəlxalq aləmdə yüksək səviyyədə qorunur, ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunur. Azərbaycanın artan imkanları, nüfuzu, dünya üçün önəmli ölkəyə çevrilməsi mövqeyimizi daha da möhkəmləndirib.

Ölkəmizin BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi də təsadüfi deyildi. Ölkəmizin beynəlxaql əməkdaşlıq üçün müzakirələr platformasına, mədəniyyətlərin dialoqu məkanına, beynəlxalq iqtisadi və nəqliyyat qovşağına çevrilməsi, həmçinin, sülhpərvər siyasət yürütməsi dünyada Azərbaycanın nüfuzunu xeyli artırıb.

Regional və beynəlxalq əməkdaşlığın təmin edilməsi üçün ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması qarşımızda duran əsas məsələ idi.

Bu gün artıq Ermənistanın təcavüzkar siyasəti nəticəsində bu istiqamətdə yeganə həll variantı kimi qalan yola start verilib. Problemi həll etmək üçün siyasətçilər, diplomatlar 30 il çalışdılar. Lakin Ermənistan buna imkan vermədi. İndi problemi Ordu həll edir...

### Sülh danışıqlarını kim və necə iflasa uğratdı?

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində Ermənistan və Azərbaycan prezidentlərinin, xarici işlər nazirlərinin xeyli görüşləri olub. Keçirilən hər bir görüşdə cənab İlham Əliyev Azərbaycanın dəyişməz mövqeyini diqqətə çatdıraraq, danışıqlar xatirinə danışıq aparmağın gərəkli olmadığını bildirirdi. Rəsmi Bakı qarşı tərəfdən qeyri-konstruktiv mövqeyindən əl çəkməyi, düzgün mövqe nümayiş etdirməyi tələb edirdi.

ATƏT-in Minsk Qrupunun mövsud olduğu müddət ərzində konkret nəticəyə nail ola bilməməsində kim günahlardır? 25 ildən çoxdur ki bu təşkilat danışıqları uzatmaqla, rəsmi Bakı masada Yerevanı divara qısnayıb, yekun sənədi imzalatmaq üçün ATƏT-ə üz tutduğu həlledici anda isə həmsədrlər “tərəflər öz aralarında razılaşsın, biz dəstəkləyərik” deməklə Ermənistanın işğalına göz yumdular.

Azərbaycan Prezidenti bunu dəfələrlə ifadə edib: “Bu gün dünyada açıq-aydın dərk edilir ki, dondurulmuş münaqişələr öz həllini tapmalıdır. Bu həll ancaq və ancaq beynəlxalq hüquq normaları və prinsipləri əsasında ola bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çıxarılmalıdır. Ondan sonra bölgədə sülh, əməkdaşlıq yarana bilər və Azərbaycan o təqdirdə bu işlərdə fəal iştirak edəcəkdir. Hələ ki, Ermənistan-Azərbaycan münaqişəsi öz həllini tapmayıb. Əgər kimsə bunu dondurmaq istəyirsə, kimsə bu məsələni arxa plana qoyub başqa məsələni həll etmək istəyirsə, biz buna heç vaxt razı olmayacağıq və əlimizdə olan bütün imkanlarla bu hərəkətlərə qarşı mübarizə aparacağıq”.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Azərbaycanın mövqeyinin dəyişməz olduğunu bəyan edən Prezident İlham Əliyevin sərt bəyanatları təbii ki, işğalçı Ermənistanı, ona havadarlıq edən dövlətləri və təşkilatları ciddi düşündürməli idi. Lakin onlar bu sözlərin adi formal çıxış olduğunu düşündülər və lazımınca qiymətləndirə bilmədilər. Nəticədə bu gün deyilənlər əyani surətdə nümayiş etdirildi. Bütün dünya Azərbaycanın və onun rəhbərinin sarsılmaz iradəsini və qətiyyətini gördü.

### Sülh yolu baş tutmayanda yeganə yol qalırdı

Ərazisi işğal olunmuş, vətəndaşları soyqırıma və deportasiyaya məruz qalmış hər hansı bir ölkənin problemi sülh yolu ilə həlli mümkün olmayanda, əl atdığı başqa tədbirlər də var. Bu antiterror əməliyyatı, başqa sözlə, hərbi yoldur.

Əlbəttə, burada siyasi faktorları da nəzərə almaq lazımdır. Bu da dünyanın güclü dövlətlərinin və beynəlxalq təşklatların mövqeyidir. Onlar da artıq Ermənistanı müdafiə etmir, Azərbaycana güzəştə getməsi üçün ciddi təzyiq göstərmirlər. Əksinə, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsini indi daha çox dövlət dəstəkləyir. Bu isə aparılmış xarici siyasətin mükəmməlliyini ortaya qoyur.

Gec ya tez ədalət öz yerini tapmalı idi. Azərbaycan Prezidenti bunun qansız baş verməsi üçün çox çalışdı, lakin Ermənistan buna əngəl oldu. Bununla da, danışıqlar vasitəsilə əldə edəcəyi dividentləri də itirdi.

Azərbaycan sülh prosesinin artıq tükəndiyini gördükdə və hərbi yolla həllə üstünlük verdikdə belə, yenə də beynəlxalq hüquq normalarını pozmur. Bu hüquq normaları Azərbaycanın mövqeyini dəstəkləyir. Çünki BMT-nin Nizamnaməsinin 51-ci maddəsində açıq-aydın göstərilir ki, hər bir ölkə özünü müdafiə etmək üçün bütün hüquqlara malikdir.

Bu günkü azadetmə əməliyyatının arxasında görülmüş çox nəhəng işlər dayanır, həm siyasi, həm iqtisadi, həm də ordu quruculuğunda. Bütün bu şərtlər təmin edildikdən sonra işğal edilmiş ərazilərimizin azad olunmasına başlandı və bu proses davam edir. Qısa vaxtda da müvəffəqiyyətlə başa catacağına nə bizdə, nə ermənilərdə, nə də dünya ictimaiyyətində şübhə yoxdur.

Qan tökülməsini istəməyən Azərbaycan Prezidenti Ermənistanın başqa yol qoymadığını təəssüflə bəyan etdi: “Mən Ermənistana dəfələrlə xəbərdarlıq etmişdim. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs verirk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əkshücum əməliyyatı keçirir və bu əməliyyat davam edir”.

Bəli cənab Prezident haqlıdır. Xoşluqla başa düşməyən düşməni zorla başa salmaqdan başqa yol yox idi. Əgər işğalçını Xarici İşlər Nazirliyi başa sala bilmədisə, Müdafiə Nazirliyi başa salmalıdır. Bu işi də Azərbaycan Ordusu öz üzərinə götürdü. İndi bütün dünya qəhrəman Azərbaycan əsgərinin nəyə qadir olduğunu görür.

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

29 sentyabr

Son səhifə

## Ronaldodan növbəti rekord



“Yuventus”un futbolçusu Kriştiano Ronaldo növbəti rekorda imza atıb. Qol.az xəbər verir ki, 35 yaşlı hücumçu buna A Seriyasinin 2-ci turunda “Roma” ilə matçda nail olub. O, qarşılaşmanın 44-cü və 69-cu dəqiqələrində fərqlənərək, dubl etməklə Avropanın TOP-5 çempionatlarında vurduğu qolların ümumi sayını 450-yə çatdırıb. Beləliklə 554 qarşılaşmada bu nəticəni əldə edən portuqaliyalı oyunçu ilkə imza atıb.

Qeyd edək ki, Ronaldonun əsas rəqibi Lionel Messidir. Argentinalı hücumçu “Barselona”nın heyətində La Liqada 486 matça çıxaraq, 445 dəfə qapıları dəqiq nişan alıb.

## “Beşiktaş” və “Trabzonspor”dan Azərbaycana dəstək paylaşımı!




Türkiyənin “Beşiktaş” və “Trabzonspor” futbol klubları cəbhə bölgəsində baş verən son hadisələrlə bağlı Azərbaycana dəstək mesajı veriblər. Bununla bağlı klubların rəsmi sosial şəbəkə hesablarında paylaşım edilib. “Beşiktaş” klubu öz dəstəyini “Bir millət, iki dövlət! Hər zaman yanındayıq, Can Azərbaycan” sözləri ilə ifadə edib.

“Trabzonspor” klubu isə “Dağ sizsizsə, torpaq bizik. Siz budaqsız, biz də yarpağıq.Türkiyəyik, Trabzonuq, Azərbaycanıq” sözləri ilə öz dəstəklərini bildiriblər. Qeyd edək ki, ötən gün “Qalatasaray” və “Fənərbaxça” klubları da rəsmi sosial şəbəkə hesablarında dəstək mesajları paylaşıb, həmçinin iki komanda arasında keçirilən İstanbul derbisi zamanı tribunalarda Azərbaycan ordusuna dəstək plakatları qaldırılıb

## “Real”da ciddi itki: Toni Kroos 14 gün futboldan uzaq qalacaq



“Real”ın La Liqanın 3-cü turunda “Betis”lə matçda (3:2) zədələnən futbolçusu Toni Kroosun durumuna aydınlıq gəlib. Bu haqda “kral klubu”nun rəsmi saytı məlumat yayıb. 30 yaşlı yarımmüdafiəçinin sağ bud əzələsində dartılma aşkarlandığı bildirilib. Buna görə də Almaniya millisinin də üzvü olan oyunçu 10 - 14 gün yaşıl meydanlardan kənarda qalacaq.

Xatırladaq ki, Kross Almaniya yığmasının oktyabrın 7-də Türkiyə ilə yoldaşlıq görüşündə və oktyabrın 10-da UEFA Millətlər Liqasının 3-cü turunda Ukrayna ilə matçda iştirak etməyəcək.

## “Barselona”ya ŞOK: Obameyanq transfer təklifini rədd edib!



“Arsenal”ın futbolçusu Pier-Emerik Obameyanq “Barselona”nın transfer təklifini rədd edib. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, bu barədə futbolçu özü açıqlama verib. 31 yaşlı hücumçu London təmsilçisi ilə müqaviləsini yeniləməzdən əvvəl bir neçə klubdan, xüsusilə də “Barselona”dan transfer təklifi aldığını deyib. Lakin o, Kataloniya klubuna keçmək istəmədiyini bildirib.

Qeyd edək ki. P.E.Obameyanq “Arsenal”a 2018-ci ilin yanvar ayında Dortmund “Borussiya”sından transfer olunub. O, geridə qalan mövsüm 36 matça çıxaraq, 22 qol vurub və 3 qolun ötürməsini verib.

## Qanunsuz ov edən şəxslər cərimələniblər



Qanunsuz balıq ovunun qarşısının alınması məqsədilə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşlarının sentyabrın 24-dən sentyabrın 26-dək keçirdikləri növbəti nəzarət tədbirləri zamanı Xəzər dənizinin Xaçmaz rayonunu əhatə edən hissəsində, Mingəçevir su anbarında və digər su hövzələrində qanunsuz ov edən şəxslər saxlanılıb.

Bunu AZƏRTAC-a xidmətin rəis müavini Bəhruz Məhəmmədov bildirib. O qeyd edib ki, araşdırma zamanı brakonyerlərin Yevlax rayon sakinləri Kərim Kərimzadə, Taleh Mahmudov, Elnur Cabbarov, Çingiz Quliyev, Mingəçevir şəhər sakinləri Qələndər Atakişiyev, İlqar Məhərrəmov, Elxan Şərifov, Rövşən Məmmədov, Xaçmaz rayon sakini Asif Musayev, Beyləqan rayon sakini Ayət Sarıyev olduğu məlum olub. Onlardan istifadəsi qadağan olunan ov alətləri və müxtəlif növ balıqlar götürülüb.

Faktla bağlı 9 qanun pozucusu barəsində protokol tərtib edilib və hər biri 700 manat məbləğində cərimələnib. Təbiətə 2376 manat məbləğində ziyan vurmuş qanun pozucusu Ayət Sarıyevin isə əməlində cinayət tərkibi yarandığından məsələyə hüquqi qiymət verilməsi və təqsirkar barəsində qanunamüvafiq tədbirlərin görülməsi üçün toplanmış sənədlər Su Nəqliyyatında Polis İdarəsinə göndərilib.

## İnsanları qaçırır, əvəzinə pul aldıqdan sonra isə öldürürdülər

İnsanları oğurlayırdılar, onların əvəzinə pul aldıqan sonra isə qətlə yetirirdilər. Lenta.ru-nun məlumatına görə, dəhşətli hadisə Rusiyanın Moskva vilayətində qeydə alınıb. Artıq mütəşəkkil cinayətkar qrupun üzvü Yevgeniy Qorlov saxlanılıb. Bu cinayətlərdən əlavə onun oğurladığı iki nəfəri də qətlə yetirdiyi məlum olub. Təqsirləndirilən şəxs insan oğurluğu və qətl maddəsi ilə 20 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasını ağır rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

58 yaşlı kişinin əlbir olduğu şəxslərdən ikisi ömürlük həbsə, biri isə 15 il müddətinə azadlıqdan məhrum edilib. İstintaqa görə, təqsirləndirilən şəxslər mütəşəkkil cinayətkar qrupun tərkibində 2006-2012-ci illər ərzində Moskva vilayətinin ərazisində üç nəfəri qaçırıblar. Cinayətkarlar onların azadlığı müqabilində 500 min dollardan (850000 AZN) dörd milyon avroya (7 909 420 AZN) qədər pul tələb ediblər. Pullar alındıqdan sonra isə girovları qətlə yetiriblər.

## Azərbaycanda kişilər və qadınlar arasında sağlam ömür uzunluğu açıqlanıb



Ötən il Azərbaycanda kişilər arasında sağlam ömür uzunluğu 63,6, qadınlar arasında isə 68,5 yaş olub. Bu məlumatlar Dövlət Statistika Komitəsinin “Azərbaycanda qadınlar və kişilər” statistik məcmuəsində əks olunub. Məlumata görə, ötən il şəhər və kənd yerləri üzrə doğulanda gözlənilən ömür uzunluğu qadınlar arasında 78,7, kişilər arasında isə 74 yaş təşkil edib.

## ELAN

Dadaşzadə Ləman Gəncalı qızına məxsus Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən verilmiş iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**